Səs
№ 238 (6438) 28 dekabr 2021-ci il. Qiymətı 40 qəpik



## Fransadakı soydaşlarımız fransız siyasətçilərin məsuliyyətsiz addımına sərt etirazlarını bildiriblər

4



# Müraciət

*Azərbaycan Respublikasının Prezidenti cənab*
*İLHAM ƏLİYEVƏ*



4

# Qalib Liderə xalq dəstəyi və ildən-ilə yüksələn etimad!

3



## Nəsir İmanquliyev - 110



5

## Azərbaycan mətbuatında Nəsir İmanquliyev imzası

## "Azərbaycan bir neçə konvensiya üzrə beynəlxalq məhkəmələrə müaricət edəcək"

4



Azərbaycan yaxın zamanlarda bir neçə konvensiya üzrə - azad olunmuş ərazilərdə ekologiya, ətraf mühitə vurulan ziyan, həmçinin enerji...




## Məktəblərdə korrupsiyanın qarşısı necə alınmalıdır?



## Ət yeyənlərin damarları niyə tez tutulur?

16

Bioloqlar qırmızı və qızartma ət çox yeyənlərin daha çox aterosklerozdan- damar tıxanmasından əziyyət çəkdiyini bildirir. Onlar yeni elmi tədqiqatda bunu niyə baş verdiyini araşdırıb. SİA xəbər verir ki, "Nature Microbiology" dergisində dərc edilən elmi məqalədə ət qidalarından bağırsaqda Emergencia timonensis bakteriyasının...



## Əlillik təyinatı ilə bağlı YENİ QAYDALAR belə olacaq

6

Bu xəbərimizdə həssas qrupu əhatə edən bir yeniliklə bağlı məlumat verəcəyik. Əlliyin qiymətləndirilməsi ilə bağlı göndərişlərin...



## Yan Lisnevski: "Azərbaycan hamı üçün dövlət inkişafı nümunəsinə çevriləcək"

15

Moldovalı politoloq, "Intellect Group" sosioloji şirkətinin direktoru Yan Lisnevski "Caliber" analitik mərkəzinə müsahibəsində regionda...

# Prezident İlham Əliyev AZƏRTAC-ın yeni binası ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 27-də Azərbaycan Dövlət İnformasiya Agentliyinin - AZƏRTAC-ın yeni binası ilə tanış olub. AZƏRTAC xəbər verir ki, Agentliyin İdarə Heyətinin sədri Aslan Aslanov dövlətimizin başçısına binada yaradılan şəraitlə bağlı məlumat verdi.**




Bildirildi ki, yeni bina Azərbaycan Prezidentinin müvafiq Sərəncamına əsasən Bakının Atatürk prospekti 70 ünvanında inşa olunub. Bina zirzəmi qatı (avtodayanacaq) ilə birlikdə 9 mərtəbədən ibarətdir. Müasir standartlara uyğun inşa olunmuş və 8 ballıq zəlzələyə davamlı binada yüksək təhlükəsizlik tədbirləri görülüb, yanğından mühafizə və yanğın xəbərverici sistemlər quraşdırılıb, hər birinin 100 ton tutumu olan 2 yeraltı ehtiyat su anbarı tikilib.

Səkkizguşəli ulduz formasında layihələndirilmiş binanın birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin büstü qoyulub, Ümummilli Liderimizin, Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın mətbuatla bağlı tədbirlərdə iştirakını, yerli və xarici mediaya müsahibələrini, Müzəffər Ali Baş Komandanımızın İkinci Qarabağ müharibəsi dövründə xalqa müraciətlərini, işğaldan azad olunmuş bölgələrə səfərlərini əks etdirən fotostendlər yaradılıb, AZƏRTAC-ın müxtəlif dövrlərdə istifadə etdiyi texniki avadanlıqların



nümunələrindən ibarət muzey təşkil olunub.

Qeyd edilib ki, ilk xəbəri 1920-ci il martın 2-də işıq üzü görən Agentlik Azərbaycan Xalq Cümhuriyyətində baş verən hadisələri, hökumətin gördüyü işləri cəmi 58 gün işıqlandıra bilib. Sovet dönəmində isə ictimai-siyasi hadisələrdən asılı olaraq, fərqli aqibətlə üzləşib, adı 7 dəfə dəyişikliyə məruz qalıb.

Ulu öndər Heydər Əliyevin respublikada hakimiyyətə ilk gəlişinə qədər, bir növ, arxa planda qalan AZƏRTAC məhz Ümummilli Liderin iradəsi, şəxsi nüfuzu və qayğısı hesabına keçmiş sovet respublikalarının informasiya agentlikləri arasında qabaqcıl yerə çıxıb. Yeni binanın muzey hissəsində nümayiş olunan eksponatlar bunu əyani şəkildə sübut edir. Sovet İttifaqında SİTA-dan və Ukrinformdan sonra tamamilə kompüterləşdirilən informasiya agentliyi AZƏRTAC olub. Texniki təchizata öz dövrünün ən müasir "T-100" teletaypını və İtaliyanın Olivetti şirkətinin kompüterlərini də əlavə etmək olar. Uzaq məsafələrə rəsmi sənədlərin - qərar, fərman və sərəncamların birbaşa ötürülməsinə imkan verən bu



avadanlıqlarla ən çox təchiz olunan üç agentlikdən biri məhz AZƏRTAC idi.

Müstəqillik illərində də ulu öndər Heydər Əliyev dövlət siyasətinin informasiya təminatında AZƏRTAC-a xüsusi qayğı ilə yanaşırdı. 1995-ci il martın 3-də Agentliyin yenidən təşkil edilməsi haqqında imzaladığı Fərmanla AZƏRTAC-a dövlət informasiya orqanı statusu verilir, büdcə vəsaiti ayrılır, beynəlxalq informasiya məkanına çıxmaq qarşıya əsas vəzifə kimi qoyulur. Məhz həmin dövrdən AZƏRTAC regional və beynəlxalq media qurumları ilə sıx əlaqələr qurmağa başlayır.

Bu strateji xətt dövlətimizin başçısı İlham Əliyevin hakimiyyəti dövründə də uğurla davam etdirilir. Hazırda Azərbaycan AZƏRTAC-ın timsalında Dünya Xəbər Agentlikləri Şurasının səsvermə hüququna malik 13 üzvündən biridir. AZƏRTAC Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatında (OANA) vitse-prezident və İslam Ölkələri Xəbər Agentlikləri Təşkilatında (UNA) büro üzvüdür.

Hazırda informasiya məkanında yeni çağırışlara adekvat cavab vermək üçün müasir texnika və avadanlıqlarla təchizat vacibdir. Ən müasir texnoloji avadanlıqların və ofis inventarlarının quraşdırıldığı yeni binada yaradıcı və texniki heyətin səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılıb. Binada beynəlxalq standartlara uyğun xəbər zalları, multimedia vasitələri ilə təchiz olunmuş studiyalar qurulub, operativ dəyirmi masa, teleizləmə sistemi təşkil edilib. Binada müxtəlif tədbirlərin keçirilməsi üçün sinxron tərcümə avadanlığı ilə təchiz edilmiş 180 yerlik konfrans zalı, 90 yerlik yeməkxana, zəngin ədəbiyyat fondu olan kitabxana, tibb və idman otaqları yaradılıb.

İstirahət və bayram günləri də daxil olmaqla fasiləsiz rejimdə fəaliyyət göstərən AZƏRTAC-ın yeni binasının ayrıca transformator məntəqəsi, fövqəladə hallarda elektrik ehtiyacını ödəyən dizel generator stansiyası vardır. Müasir qazanxana sistemi binanın bütün fəsillərə uyğun mərkəzləşdirilmiş qaydada havalandırılmasını təmin edir. Binanın zirzəmi qatında və həyətində 60 avtomobil üçün dayanacaq yaradılıb, ərazi abadlaşdırılıb və yaşıllaşdırılıb, ətraf küçəyə asfalt döşənib.




Hazırda 7 regional və beynəlxalq media təşkilatının üzvü olan AZƏRTAC son illərdə 50-yə yaxın xarici xəbər agentliyi ilə əməkdaşlıq müqaviləsi imzalayıb, 150-dək agentliklə informasiya mübadiləsi aparır. Onların arasında TASS (Rusiya), Sinxua (Çin), Anadolu (Türkiyə), Press Association (Böyük Britaniya), DPA (Almaniya), İRNA (İran), ANSA (İtaliya), KYODO (Yaponiya), Yonhap (Koreya Respublikası) və digər nüfuzlu milli xəbər yayımçıları var. Agentlik 8 dildə - Azərbaycan, rus, ingilis, alman, fransız, ərəb, Çin və ispan dillərində xəbərlər, eləcə də beş dildə videoxəbərlər yayır. AZƏRTAC-ın xarici ölkələrdə 21 müxbir məntəqəsi fəaliyyət göstərir.



Ötən əsrin 20-ci ilindən Azərbaycan tarixinə şahidlik edən AZƏRTAC hazırda XXI əsrin salnaməsini yazmaqdadır. Yeni binada yaradılan hərtərəfli şərait agentliyin bütün yaradıcı və texniki resurslarını ölkənin uğurları, o cümlədən azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri barədə məlumatları bundan sonra da daha geniş coğrafiyada yaymağa səfərbər edəcəyinə əminlik yaradır.



# Qalib Liderə!

## xalq dəstəyi və ildən-ilə yüksələn etimad

**"İnam İndeksi" jurnalının VI buraxılışında Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətinin ictimai rəydə nəticələri bu reallığın bariz sübutudur**

**Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi uğurlu daxili və xarici siyasət hər zaman ölkə vətəndaşlarının yüksək etimadını və dəstəyini qazanıb. 2003-cü ildən bəri keçirilən bütün seçkilərin nəticələri göstərir ki, hazırda Prezident İlham Əliyev Azərbaycan xalqının qəbul etdiyi alternativsiz liderdir, sözün birbaşa mənasında Onun nəzərəçarpacaq rəqibi siyasi səhnədə yoxdur.**

Keçirilən sorğular bütün rəy sorğularının nəticələri də onu bir daha sübut edir ki, Azərbaycan xalqı öz gələcək xoşbəxtliyini bu siyasətdə görür. Prezident İlham Əliyev dünyada da nüfuzlu, uzaqgörən lider kimi tanınır.

Elə bu günlərdə Sosial Tədqiqatlar Mərkəzinin "İnam İndeksi" jurnalının VI buraxılışında da Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyəti ictimai rəydə qiymətləndirilib. "Prezident: Zəfərə davam, Zəfərə inam!" şüarı altında keçirilən təqdimatda Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri Zahid Oruc deyib ki, "İnam İndeksi-06" sosioloji tədqiqatda Azərbaycan Prezidentinin 2021-ci ilin ikinci yarısı üzrə siyasi, hərbi və diplomatik, sosial və mədəni sahələrdə, informasiya cəbhəsində çoxşaxəli və olduqca zəngin fəaliyyəti vətəndaşlarımızın rəyində əks etdirilib. Rəy sorğusu dövlətçilik tariximizdə ilk dəfə qədəm qoyduğumuz Zəfərin bir illiyi kimi misilsiz salnamənin yazıldığı ili, azad Qarabağda möhtəşəm bərpa və quruculuq mərhələsini əhatə edir.

### İLHAM ƏLİYEV LİDERLİYİNİN, PRAQMATİK SİYASƏTİNİN VƏ SƏMƏRƏLİ FƏALİYYƏTİNİN GÖSTƏRİCİSİ

Qeyd edək ki, Sosial Tədqiqatlar Mərkəzinin "Prezidentin fəaliyyəti ictimai rəydə" hesabatını dərc edib və hesabat hazırlanarkən həyata keçirilən sorğusu təqvim etibarilə mühüm tarixi məqama, postmüharibə dövrünə, Qarabağın bərpa və quruculuq mərhələsinə təsadüf edir. Sorğu Naxçıvan Muxtar Respublikası və azad edilmiş ərazilər istisna olmaqla bütün regionlarını əhatə edib. 1162 respondentin rəyi öyrənilib. Keçirilən əvvəlki sorğuların və cari sorğunun nəticələrinin təhlili Prezident amilinin Azərbaycan cəmiyyətində, ictimai təfəkkürdə ümummilli maraqlar baxımından birləşdirici, uzlaşdırıcı əsas güc mərkəzi olduğunu göstərir. Postmüharibə dövrünün ilk ili kimi xarakterizə edilən 2021-ci il dövlət başçısının fəaliyyətində, həmişə olduğu kimi, öz dinamikliyi və aktivliyi ilə xarakterikdir.

Sorğuda iştirak edən vətəndaşların Prezidentə inam etimadı 91,2 faiz tam etibar edirəm, 6,9 faiz əsasən etibar edirəm olmaqla yüksək səciyyələnir. Respondentlərin əhəmiyyətli hissəsi Şuşa Bəyannaməsinin Azərbaycan və Türkiyə arasındakı münasibətləri hərbi müttəfiqlik səviyyəsinə qaldıracağını (60,4%), Türkiyə ilə birbaşa hərbi, təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlığı yeni mərhələyə daşıyacağını (61,6%), Azərbaycan və Türkiyənin türk dünyasının milli maraqları və türk həmrəyliyi üçün örnək rolunu oynayacağını (50,6%) düşünür. Zəngəzur nəqliyyat dəhlizinin fəaliyyətə başlaması ilə Azərbaycanın öz eksklavı olan Naxçıvanla və qardaş ölkə Türkiyə ilə əlaqələrinin gücləndirəcəyinə (74%), Türk dünyasında birliyin güclənməsinə xidmət edəcəyinə (54,7%), Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizlərinə çıxışını (53,5%), Türkiyə və Azərbaycanın Türk dünyasına birbaşa çıxışını təmin edəcəyinə (34,8%) əminlik ifadə olunub.

Respondentlər Füzulidə ilk dəfə beynəlxalq hava limanının açılmasını, Zəngilan və Laçında hava limanlarının inşasının planlaşdırılmasını Azərbaycanın turizm sektorunun inkişafına müsbət təsir (75,9%), regionun iqtisadi inkişafına töhfə (57,3%), Qarabağa səfərlərin vaxt baxımından qısalması (52,7%), məşğulluğa əlavə dəstək kimi (25,5%) şərh ediblər.

Sorğu nəticələrinə görə, Prezident Qələbənin memarı kimi qlobal platformalarda intensiv çıxışları ilə Zəfər tariximizi uğurla beynəlxalq aləmə tanıdır (93,6%), Zəfərin tarixiləşdirilməsində vətəndaş iştirakçılığını və ümummilli həmrəyliyi stimullaşdırır (85,7%), Azərbaycanın informasiya siyasətində üstünlüyünü təmin edir və bu yöndə fəaliyyətə dair yeni imkanlar açır (85,7%), milli maraqlarımıza zidd cəhdlərə və xarici təsirlərə qarşı müqaviməti gücləndirir (81,9%), qalibiyyəti milli birliyin və uğurlu siyasətin təminatında əsas resursa çevirməyin vacibliyini şərtləndirir (79,8%).

### HƏM HƏRB MEYDANINDA, HƏM DƏ DANIŞIQLAR MASASINDA - PREZİDENT İLHAM ƏLİYEV QƏTİYYƏTİ!

Güclü ölkənin güclü, qətiyyətli lideri də güclü olur. Böyük mütəfəkkir Viktor Hüqo vaxtilə yazırdı: "Əsl Liderin ömrünün yarısı Vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir".

Dövlətimizin başçısı İlham Əliyevin istər yerli televiziya kanallarına və mətbuatına, istər xarici televiziya kanallarına və mətbuatına, istəsə də xalqa müraciətlərində səsləndirdiyi hər bir bəyanatda 30 ilə yaxın müddətdə dünya dövlətlərinin siyasi iradə ortaya qoymamalarının yol açdığı sual doğuran və dəqiq cavabını axtaran məqamlar öz əksini tapıb. Real həqiqətlər bir daha bu gerçəkliyə işıq salır ki, zaman keçdikcə baş verən hadisələrin mahiyyəti daha dərindən dərk olunur, haqqın, ədalətin maraqların arxasında necə əridiyi aydın görünür. Bu gün dünyaya edilən "həqiqətə həqiqət gözü ilə baxaq" çağırışı ermənilərı və onların havadarlarını narahat etsə də, unudulmamalıdır ki, beynəlxalq hüquq normaları və prinsipləri deyilən məfhum mövcuddur ki, onlara böyüklüyündən, kiçikliyindən asılı olmayaraq bütün dövlətlər əməl etməli, yanaşmalarında əsas götürməlidirlər.

### İQOR KOROTÇENKO: "İLHAM ƏLİYEVİN DÜNYA MİQYASINDA SİYASƏTÇİ OLDUĞUNU QƏBUL ETMƏK LAZIMDIR"

"Azərbaycan Prezidenti İlham Əliyevin "Rossiya 1" telekanalında yayımlanan "60 dəqiqə"də çıxışı çox güclü idi. Prezidentin çıxışında yüksək dəqiqlik, ardıcıllıq, məntiqlilik və əminlik vardı".Bunu rusiyalı hərbi ekspert, "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko deyib. Rusiyanın ən çox baxılan siyasi tok-şousunda Azərbaycan Prezidentinin Dağlıq Qarabağ münaqişəsi regionunda baş verənlər, münaqişənin yenidən alovlanmasının səbəbləri və Ermənistan tərəfinin yalan və təxribatçı addımları ilə bağlı Rusiya ictimaiyyətini məlumatlandırdığını bildirən hərbi ekspert İlham Əliyevin dünya miqyasında siyasət adamı olduğunu vurğulayıb: "Rusiyalı izləyicilər, siyasi ekspertlər İlham Əliyevin çıxışını erməni rəqibi Nikol Paşinyanla müqayisə edərkən gördülər ki, Azərbaycan Prezidenti erməni həmkarından bir baş yox, deyərdim iki baş yuxarıda idi. MQİMO (Moskva Dövlət Beynəlxalq Əlaqələr Universiteti-red.) məktəbi hiss olunurdu. Sözsüz ki, Rusiya cəmiyyətində Azərbaycan Prezidenti barədə ümumi rəy var. Bu rəy İlham Əliyevin dünya miqyasında siyasətçi olmasından ibarətdir. Bunu qəbul etmək lazımdır. Dünən milyonlarla rusiyalı İlham Əliyevin çıxışını izlədi və ona qarşı bir daha simpatiya oyandı. Xüsusi ilə də onun çıxışındakı yüksək dəqiqlikli arqumentlər, tezislərin ardıcıllığı, münaqişənin yenidən alovlanmasının əsas səbəblərinin ifadə olunması rusiyalı izləyici üçün hərbi əməliyyatlar və ümumilikdə münaqişə haqqında ətraflı məlumat oldu. Bu xüsusilə də Ermənistanın baş naziri Nikol Paşinyanın əmin olmayan çıxışı fonunda daha çox hiss olunurdu. İlham Əliyev Dağlıq Qarabağ regionunda hərbi əməliyyatların bərpa olunmasına gətirib çıxaran əsas səbəbləri ardıcıl olaraq dilə gətirdi. Bu çox mühüm məsələ idi. O bildirdi ki, İrəvanın qeyri-konstruktiv mövqeyi, danışıqlar prosesini uzatmaq arzusu və uzun müddətdir ki, Paşinyanın törətdiyi təxribatlar nəhayət geniş miqyaslı müharibəyə gətirib çıxarıb".

Bəli, 44 günlük Vətən Müharibəsi bir daha Prezident İlham Əliyev cənablarının dünya miqyasında LİDER siyasətçi olduğunu bir daha göstərdi. Və dəmir yumruğa çevrilən 44 günlük Vətən Müharibəsinin Qələbə sevincimizi nümayiş etdirən ZƏFƏR PARADIMIZ bunun sübutudur. Dövlətimizin başçısı İlham Əliyevin Laçının azad edilməsi ilə bağlı xalqa müraciətində qeyd etdiyi kimi, hər kəs gücümüzü, qüdrətimizi, iradəmizi gördü. Bu dəmir yumruq onların belini qırdı, onların başını əzdi. Bu, birlik, güc yumruğudur. Bundan sonra Azərbaycan yalnız inkişaf, tərəqqi yolu ilə gedəcək. Bundan sonra da biz ordu quruculuğu işində əməli addımlar atacağıq, ordumuzu daha da gücləndirəcəyik. İradəmiz də, təcrübəmiz də var. Dövlət başçımızın dediyi kimi: "İndi bütün ölkələr bu Vətən müharibəsinin təcrübəsini öyrənirlər. Vəsaitimiz də var. Xalq-iqtidar birliyimiz də var. Biz göstərmişik ki, böyük xalqıq, qürurlu xalqıq. Düşməni yerə vurduq. Düşmənin belini qırdıq, məhv etdik. Bu, tarixi Qələbədir. Bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq, şanlı Qələbə kimi!".Bu Qələbə eyni zamanda, göstərdi ki, Azərbaycan xalqı bu vəziyyətlə heç vaxt barışmaq fikrində deyildi və bütün xalqımız, o torpaqları tərk edənlər, qayıtmaq arzusunda olanlar, o torpaqlarda heç vaxt olmayan, amma o bölgələrdən olan gənc nəslin nümayəndələri, hər kəs bir arzu ilə yaşayıb və bu arzu həyata keçirildi. Artıq müharibə arxada qaldı. Prezident İlham Əliyev Azərbaycan xalqını 2020-ci ilin qalib xalqı etdi. 18 il öncə deyilənlər, bu gün öz müsbət nəticəsini verib. Bu gün Prezident İlham Əliyevin müdrik və uzaqgörən inkişaf strategiyası nəticəsində, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan, dünyadakı nüfuzu durmadan artan, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə çevrilən ölkəmiz bu gün müəyyən edilmiş hədəflərə doğru inamla irəliləyir, ötən hər il bütün sahələrdə əldə olunan böyük uğurlarla tarixə düşür. Bu nailiyyətlərin əldə edilməsində müstəsna rolu olan dövlət proqramları regionların iqtisadi potensialının əhəmiyyətli dərəcədə artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yaxşılaşmasına, müasir müəssisələrin açılmasına səbəb olmuş, Azərbaycanı bütün bölgələrində dinamik tərəqqi yaşanan bir ölkəyə çevirmişdir. Bax, budur uğurlu siyasət!

Həmçinin, bu sorğu bir daha sübut edir ki, Azərbaycanda İlham Əliyev siyasi lider kimi, alternativsiz LİDER kimi xalqın inam ünvanıdır. Çünki məhz bu siyasətin nəticəsində biz Qələbə qazandıq. Haqq, ədalət, Azərbaycanımızın bütövlüyü bərp olundu. Qarabağ Azərbaycandır!

Prezident İlham Əliyev dekabrın 24-də Şuşada, Cıdır düzündə çıxışı zamanı dediyi kimi: "Xalqımız bir amal uğrunda, bir müqəddəs ideya uğrunda birləşdi və istədiyinə nail oldu",-deyərək bildirib ki, "Mən deyirdim ki, gün gələcək Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada dalğalanacaq və bu müqəddəs günü biz şəhidlərimizin qanı-canı bahasına yaşadıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Bu gün biz azad Qarabağdayıq. Bu gün biz azad Zəngəzurdayıq. Biz - bu torpaqların sahibləri bu torpaqlara qayıtmışıq və bundan sonra biz bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan xalqının mənim sözlərimə inamı məni daha da çox inandırırdı ki, biz buna nail olacağıq. Xalqımız birləşdi, bir amal uğrunda, bir müqəddəs ideya uğrunda birləşdi və istədiyinə nail oldu".

Çünki dövlət başçısı xalqın dəstəyinə, xalqın da liderinə böyük inamı olduğu üçün 44 gün ərzində 30 illik həsrətə son qoyuldu. Prezident İlham Əliyev dekabrın 24-də Şuşada, Cıdır düzündə çıxışı zamanı bir daha bildirib ki, xalqın dəstəyi mənə güc verir, iradəmi möhkəmləndirir: "Xüsusilə Azərbaycan xalqına öz təşəkkürümü bildirmək istəyirəm, həm təbriklərə görə, həm də mənə göstərilən dəstəyə görə. Mən bu dəstəyi 2003-cü ildən - Prezident vəzifəsinə ilk dəfə seçiləndən bu günə qədər hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək iradəmi möhkəmləndirir. Bu dəstək nəticəsində biz hamımız - bütün Azərbaycan xalqı böyük tarixi uğurlara imza atmışıq". Bəli, bu, Azərbaycan Prezidenti İlham Əliyev Cənablarının əsl siyasətidir.

**RƏFİQƏ KAMALQIZI**

# Müraciət

## Azərbaycan Respublikasının Prezidenti cənab İLHAM ƏLİYEVƏ

**Möhtərəm Prezidentimiz!**

*Çox hörmətli Yeni Azərbaycan Partiyasının Sədri!*



Ulu Öndər Heydər Əliyevin memarı olduğu Azərbaycanımız Sizin 18 illik titanik fəaliyyətiniz sayəsində davamlı inkişaf yolunda uğurla irəliləyərək beynəlxalq miqyasda özünəməxsus layiqli və nüfuzlu yer tutmuşdur.

Təbii ki, siyasi, iqtisadi, sosial, hərbi sahələrdə əldə edilmiş uğurların fövqündə Sizin xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasətinə sədaqətiniz, Rəhbər kimi sözlə əməlinizin vəhdəti, beynəlxalq aləmdə daima artan nüfuzunuz dayanır.

Siz Ulu Öndərin şah əsəri olan çağdaş, demokratik Azərbaycanın dünyanın yüksək inkişaf etmiş ölkələri səviyyəsinə yüksəldilməsi üçün müəllifi olduğunuz strateji proqramları həyata keçirməklə yanaşı, xalqımızın taleyində xüsusi əhəmiyyətə malik olan transmilli layihələrə fədakarlıqla və qətiyyətlə imza atmaqla müasir və gələcək tariximizin ən parlaq səhifələrinə möhür vurmusunuz.

Dünyanın ən güclü ordularından birinə çevirdiyiniz Silahlı Qüvvələrimiz Sizin Ali Baş Komandan kimi müdrik rəhbərliyinizlə 21-ci əsrin hərb tarixinə yeni səhifə yazdı. Siz dövlətimizi QALİB DÖVLƏT, xalqımızı QALİB XALQ zirvəsinə yüksəltdiniz. Xalqımıza bəxş etdiyiniz və Azərbaycan tarixinin ən şanlı səhifəsi kimi əbədiyyət qazanan ZƏFƏR GÜNÜ indiki və gələcək nəsillər üçün əsl qəhrəmanlıq salnaməsidir. Bu möhtəşəm Qələbə ilə Siz xalqımızın intizarla gözlədiyi tarixi ədaləti bərpa etdiniz, millətimizin milli mənliyi və qürurunu özünə qaytardınız.

Biz, konfrans iştirakçıları, parlaq Qələbəni bizə bəxş etdiyiniz üçün Sizə dərin minnətdarlığımızı bildiririk. Əmin ola bilərsiniz ki, bundan sonra da Sizin ətrafınızda daha sıx birləşərək, yeni zəfərlərə gedən yolda birlikdə addımlayacağıq!

**Hörmətli cənab Prezidentimiz!**

Siz yüksək intellektiniz, dərin məntiqiniz sayəsində ən uca yüksəklikləri fəth etmiş, əvəzolunmaz Lider olaraq, millətimizin, bütün Azərbaycan xalqının, dünya azərbaycanlılarının və beynəlxalq tərəfdaşlarımızın yüksək etimadını qazanmısınız.

Mütəmadi olaraq ən mötəbər beynəlxalq tədbirlərin keçirildiyi ünvana çevrilmiş doğma Azərbaycanımızın hər bir vətəndaşı daima Sizinlədir və öz Lideri ilə fəxr edir, Sizə sonsuz məhəbbətini ifadə edərək qürur duyur.

Əminik ki, məhz Sizin uzaqgörən siyasətiniz və müdrik rəhbərliyinizlə dövlətimiz, xalqımız yeni-yeni uğurlara, qələbələrə qovuşacaqdır. Dövlətimiz, xalqımız üçün bu taleyüklü yolda Sizə və hörmətli Mehriban xanıma möhkəm cansağlığı, davamlı nailiyyətlər arzulayırıq. Allah Sizi qorusun!

**Yaşasın Azərbaycan!**

**Eşq olsun Azərbaycan Prezidentinə!**

***Müraciət Yeni Azərbaycan Partiyasının təşkilatçılığı ilə 2021-ci il dekabrın 24-də keçirilən "QARABAĞ: CƏNUBİ QAFQAZDAN DÜNYAYA AÇILAN YENİ MƏNZƏRƏ" mövzusunda elmi-praktik konfransda qəbul edilmişdir.***

---



## "Azərbaycan bir neçə konvensiya üzrə beynəlxalq məhkəmələrə müaricət edəcək"

**Azərbaycan yaxın zamanlarda bir neçə konvensiya üzrə - azad olunmuş ərazilərdə ekologiya, ətraf mühitə vurulan ziyan, həmçinin enerji resurslarının, təbii sərvətlərin qanunsuz istifadəsinə dair müvafiq konvensiyalara uyğun olaraq Beynəlxalq məhkəmələrə müaricət edəcək. SİA-nın məlumatına görə, bunu xarici işlər naziri Ceyhun Bayramov Azərbaycan Respublikasının xarici siyasəti sahəsində ilin yekunlarına dair keçirdiyi mətbuat konfransı zamanı deyib.**

Nazir bildirib ki, üçtərəfli bəyanatın müddəalarının icra edilməsi istiqamətində praktiki addımlar atılması zərurəti var idi. "Mövcud olan platformalarda, həmçinin 2021-ci ildə bu məqsədlə yaradılan yeni platformalarda Azərbaycan dövləti öz mövqeyini ifadə edərək bu istiqamətdə işlər aparıb. Xarici siyasətimizin əsas prioritetləri həm ikitərəfli, həm çoxtərəfli, eyni zamanda Vətən müharibəsinin yaratdığı yeni reallıqlar kontekstində bu münasibətləri inkişaf etdirməkdir", - deyə o, bildirib

## Vətən müharibəsində yaralanan 2 500-ə yaxın hərbi qulluqçuya əlillik təyin edilib

Vətən müharibəsində yaralanan 2500-ə yaxın hərbi qulluqçuya ölkəmizin ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlillik təyinatı aparılıb. SİA xəbər verir ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi Vətən müharibəsində yaralanmış hərbi qulluqçuların əlilliyinin qiymətləndirilməsi istiqamətində aidiyyəti qurumlarla birgə işləri davam etdirir.

Həmin hərbi qulluqçuların əyani müayinəsi keçirilməklə, əlilliyinin qiymətləndirilməsi üçün sənədləşdirmə işləri yerinə yetirilir. İlk mərhələdə Müdafiə və Ədliyyə nazirlikləri, Daxili Qoşunlar və Dövlət Sərhəd Xidmətinin Hərbi Həkim Komissiyalarından şəhadətnamə (xəsarət və ya xəstəliklərinin hərbi xidmətlə əlaqəsini müəyyən edən sənəd) və tibb müəssisələrindən göndərişlər (forma 88) elektron sistemə daxil edilir.

Yekun mərhələdə Agentlik əlilliyin qiymətləndirilməsini həyata keçirir. Əlillik təyinatından sonra e-sistem tərəfindən, proaktiv qaydada onlara müvafiq sosial ödənişlər təyin olunub.

## Fransadakı soydaşlarımız fransız siyasətçilərin məsuliyyətsiz addımına sərt etirazlarını bildiriblər

**Fransada yaşayan Azərbaycan icması Fransa prezidentliyinə namizəd Valeri Pekrezin fransalı deputatlar Bruno Riteiro və Mişel Barnye ilə birlikdə Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz səfərinə sərt etirazını bildirib.**



LETTRE OUVERTE

**Mme. Valérie Pécresse** - la présidente du conseil régional d'Île-de-France et la candidate à l'élection présidentielle de 2022

**M. Bruno Retailleau** - le sénateur de la Vendée

**M. Michel Barnier** - l'ex-eurodéputé et commissaire européen

En tant que communauté azerbaïdjanaise de France, nous condamnons très fermement la récente visite illégale de la présidente du conseil régional d'Île-de-France et la candidate à l'élection présidentielle de 2022 Madame Valérie Pécresse, le sénateur de la Vendée Bruno Retailleau et l'ex-eurodéputé et commissaire européen Michel Barnier dans la région de Karabagh de la République de l'Azerbaïdjan et leur rencontre avec les dirigeants du régime séparatiste de cette région non reconnu par la communauté internationale. Cette démarche politique irresponsable est particulièrement destructive et dangereuse dans un contexte de rapprochement récent des chefs d'État arménien et azerbaïdjanais qui sont dans la perspective allant vers la paix durable dans la région du Caucase. Nous rappelons à Madame Pécresse que si elle était élue président de la République, cette visite la décrédibilisera en tant futur négociateur du processus de la paix et écartera la France de toute négociation internationale.

Le président de la République française Emmanuel Macron a contribué récemment à la rencontre du président azerbaïdjanais avec le premier ministre arménien et sa démarche respectueuse et responsable ne peut être que saluée par les Français qui restent fidèles à la tradition médiatrice de la France dans les conflits internationaux et qui refusent toute instrumentalisation d'un conflit pour des intérêts électoralistes.

Paris, France
23 décembre 2021

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, Fransa Azərbaycanlıları Koordinasiya Şurasının (FAKŞ) yaydığı bəyanatda bildirilib ki, Azərbaycan icması olaraq prezidentliyə namizəd Valeri Pekrezin, senator Bruno Riteiro və Avropa Parlamentinin keçmiş deputatı Mişel Barnyenin Azərbaycan Respublikasının Qarabağ bölgəsinə qanunsuz səfərini və beynəlxalq ictimaiyyət tərəfindən tanınmayan separatçı rejimin liderləri ilə görüşünü qətiyyətlə pisləyirlər: "Bu məsuliyyətsiz siyasi addım Qafqaz regionunda möhkəm sülhə nail olmağa çalışan Azərbaycan və Ermənistan dövlət başçılarının son yaxınlaşması kontekstində xüsusilə dağıdıcı və təhlükəlidir".

Soydaşlarımız xanım Pekrezə xatırladıblar ki, Fransanın prezidenti seçiləcəyi təqdirdə, bu səfər onu sülh prosesinin gələcək iştirakçısı kimi nüfuzdan salacaq və Fransanı istənilən beynəlxalq danışıqlardan kənarlaşdıracaq.

Nəzərə çatdırılıb ki, Fransa Prezidenti Emmanuel Makron bu yaxınlarda Azərbaycan Prezidentinin Ermənistanın baş naziri ilə görüşünə öz töhfəsini verib. "Beynəlxalq münaqişələrdə Fransanın vasitəçilik ənənələrinə sadiq qalan, seçki maraqlarının toqquşmasının hər hansı instrumentallaşdırılmasından imtina edən fransızlar onun hörmətli və məsuliyyətli yanaşmasını yalnız alqışlaya bilər", - deyə FAKŞ üzvləri vurğulayıblar.

# Nəsir İmanquliyev - 110

# Azərbaycan mətbuatında Nəsir İmanquliyev imzası

**Azərbaycan milli mətbuatının görkəmli nümayəndəsi, alim, pedaqoq, ictimai xadim, professor Nəsir İmanquliyev qəzetçilik sahəsində, jurnalistikanın inkişafında, ən əsası isə ziyalılıq və insanlıq zirvəsində olaraq, misilsiz xidmətləri ilə tarixin səhifələrinə iz salmışdır. Cəsarətli redaktor, qayğıkeş, təvazökar insan, bacarıqlı təşkilatçı, heç kimə bənzəməyən rəhbərlik üslubu onu səciyyələndirən əsas cəhətlərdir. Bu və ya digər xüsusiyyətləri ilə Nəsir İmanquliyev xatirələrdə və yazılı salnamələrdə iz salıb.**

87 il ömür sürmüş professor Nəsir İmanquliyev bütün həyatını Azərbaycan mətbuatı və mədəniyyətinin inkişafına, cəmiyyətin obyektiv informasiya tələbatının ödənilməsinə, peşəkar jurnalist kadrların hazırlanmasına həsr edib. Bu cür şəxsiyyətlər unudulmur. O, sözün həqiqi mənasında, ömrünü, yaradıcılığını milli mətbuatımızın inkişafına, jurnalist kadrların hazırlanmasına həsr edib, həyat və fəaliyyəti maraqlı məqamların axarında davam edib. Uşaqlığı, gəncliyi inqilablardan, repressiya və müharibələrdən keçib. Milli vətənpərvərlik hissləri, ədəbi-mədəni dəyərləri milli mətbuatda özünü göstərib. Tərcümeyihalını vərəqləyərkən tanış oluruq ki, tale onu "Gənc işçi", "Yeni yol", "Kommunist" kimi qəzetlərin redaksiyalarında püxtələşdirmişdi. Bu qəzetlərdə məsul vəzifələr tutan Nəsir İmanquliyev publisistik və bədii yazıları ilə Həsən bəy Zərdabi ənənələrini dövrün müasir mətbuatına gətirmişdi.

## VƏTƏNƏ SEVGİ HİSSİNİ QƏLƏMİ İLƏ XALQA TƏQDİM EDİB

Müharibənin odundan-alovundan keçən qələm sahibi 1942-ci ildə Krım cəbhəsində təkcə süngüsü ilə deyil, həm də qələmi ilə döyüşmüşdü. Belə ki, o, "Döyüşən Krım" qəzetində məsul katib, hərbi hissədə tərcüməçi və siyasi işlər üzrə müavin kimi xidmət edir. Qısa bir vaxtdan sonra yenidən "Kommunist" qəzetinə göndərilir. Bu vətənə olan sevgi hissini qələmi ilə xalqa təqdim edib, milli ruhu aşılamaq prinsipindən irəli gəlirdi. "Kommunist" qəzetində məsul katib və baş redaktorun müavini kimi çalışdığı zamanda o, "Döyüşən səhifələr" guşəsi yaratmaqla hərbi vətənpərvərlik ideologiyasına töhfələrini vermiş oldu. 1946-cı ildə o zaman çox-çox qələm sahibinə nəsib olmayan Moskva Mərkəzi Qəzet Kursunu bitirən Nəsir İmanquliyev Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində pedaqoji fəaliyyətə başlayır. Həmin illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsinin nəzdində jurnalistika fakültəsi yaradılır. Elə həmin ildən universitet auditoriyalarına qədəm qoyan böyük publisist və jurnalist Nəsir İmanquliyevin adı həm də universitetin ilk qurucularının cərgəsinə yazılır.

## MİLLİ MAARİFÇİLİK İDEOLOGİYASI YADDAŞLARA QAYTARILDI

Bakı Şəhər Partiya Komitəsində, sonra Mərkəzi Komitədə təbliğat-təşviqat şöbələrində rəhbər vəzifələrində işləyən Nəsir İmanquliyev təkcə jurnalist, ictimai xadim kimi deyil, həm də radio-televiziya və mədəniyyət qurucusu kimi milli-mənəvi dəyərlərimizin inkişafına töhfələrini vermişdi. Onun Mədəniyyət Nazirliyinin Radio-İnformasiya Baş İdarəsinin rəisi, nazirliyin kollegiya üzvü, Azərbaycan Radio və Televiziya Komitəsində sədr müavini olduğu illərdə xüsusi xidmətlər göstərmişdir. 1958-ci ildə isə onun həyatında, ümumiyyətlə, ictimai-siyasi fikir və mətbuat tariximizdə möhtəşəm bir hadisə baş verir. Bu "Bakı" axşam qəzetinin nəşrə başlamasıdır. Mərkəzi Komitənin qərarı ilə onun baş redaktorluğu Nəsir İmanquliyevə həvalə olunur. Bununla da milli mətbuat tariximizdə Həsən bəy Zərdabinin "Əkinçi"sindən başlayan, Mirzə Cəlilin "Molla Nəsrəddin" ədəbi məktəbində püxtələşən, 1920-ci ildə Demokratik Cümhuriyyət devrildikdən sonra kommunizm ideologiyasına xidmət etməyə məhkum olan milli maarifçilik ideologiyası Nəsir İmanquliyevin "Bakı" qəzetində yaddaşlara qaytarılmış oldu. 30 ildən çox "Bakı", sonra "Baku" qəzetlərinin redaktoru olan Nəsir İmanquliyev bu nəşrlərlə milli mətbuat tariximizə peşəkar jurnalistikanı, dəqiq, qərəzsiz informasiyanı, maarifçilik ruhunu, milli-mənəvi dəyərlərə hörmət hissini gətirmiş oldu. Jurnalistikanın elmi-nəzəri problemlərini işləyən alim həm də onu ciddi elm sahəsinə çevirməklə "jurnalistika dördüncü hakimiyyətdir" ideologiyasını formalaşdırmış oldu.

## "BAKI" QƏZETİ SOVET AZƏRBAYCANINDA ƏN CAVAN RƏSMİ QƏZET İDİ"

Azərbaycanın tanınmış ziyalılarının, ictimai xadimlərin onunla bağlı söylədiklər fikirlər maraq doğurur. Xalq yazıçısı Elçin Əfəndiyev Nəsir İmanquliyevi görkəmli jurnalist, ictimai xadim, pedaqoq olmaqla bərabər, ilk növbədə böyük ziyalı kimi qiymətləndirir: "Bu ziyalılıq yalnız etik bir kateqoriya deyil, eyni zamanda, vətənpərvərliyin və maarifçiliyin ifadəsi idi. Tutduğu vəzifədən, ictimai mövqeyindən asılı olmayaraq, həmin ziyalılıq Nəsir müəllimi ömrünün sonunadək müşayiət etmişdir. Nəsir İmanquliyev Azərbaycan jurnalistikasının mötəbər ağsaqqalı idi. O, bu ağsaqqallıq səlahiyyətini həm şəxsiyyəti, həm də əməli ilə qazanmışdı. "Bakı" qəzeti sovet Azərbaycanında ən cavan rəsmi qəzet idi. "Bakı" qəzeti Bakı Partiya Komitəsinin orqanı idi və aradan keçən illərin sınağı göstərdi ki, bu qəzet əslində, partiya doğmalarına yox, xalqa xidmət etmişdir. Sovet dönəmində respublika həyatının bütün sahələri - iqtisadiyyat, mədəniyyət, təhsil, sosial problemlər və s. ilə bağlı dərc olunan materialları bu gün bir daha gözdən keçirdikdə məlum olur ki, əslində, Nəsir müəllimin rəhbərlik etdiyi "Bakı" qəzeti üçün partiya qərarları, partiya şüarları yox, sözün böyük və milli mənasında vətəndaş təəssübkeşliyi əsas olmuşdur.""

Nəsir İmanquliyev çox canlı, çevik, gülərüz, güclü yumor hissinə malik bir insan olmaqla bərabər, çox prinsipial şəxsiyyət idi. Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı Anarın sözlərinə görə, müharibə illərində Rəsul Rza ilə birlikdə oldmuşdur: "Atamla bir yerdə Krım cəbhəsində ordu qəzetinin Azərbaycan redaksiyasında çalışdıqlarını bilirdim. Bu qəzetin Azərbaycan redaksiyasının rəhbəri tənqidçi və teatrşünas Cəfər Cəfərov idi. Çox illər sonra Cəfər Cəfərova fəaliyyətinin müharibə dövrü ilə bağlı böhtan atılanda onunla birlikdə Krım cəbhəsində olmuş yazıçı və jurnalistlər Rəsul Rza, Əli Vəliyev, Abbas Zamanov, İbrahim Novruzov, Cəfər Cəfərovu müdafiə edən məktub yazmışdılar, onun ən ağır şəraitdə özünü cəsur apardığını təsdiq etmişlər. Məktuba imza atanların biri də Nəsir İmanquliyev idi."

Gəlişi ilə jurnalistika sahəsində məktəbini yaradan Nəsir İmanquliyev ən böyük əsərləri onun yetirmələri, baş yazarı olduğu "Bakı" və "Baku" qəzetləri olmaqla yanaşı, Şərqi və Qərbi birlik, qardaşlıq fəlsəfəsinə səsləyən Bakı Dövlət Universitetinin professoru, AMEA-nın Şərqşünaslıq İnstitutunun direktoru, ərəb filologiyası üzrə məşhur tədqiqatçı alim, filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyeva olub. Bu gün onun ailəsində tərbiyə alan və bu şəcərəni davam etdirən insanlar Azərbaycanın nüfuzlu şəxsləridir.

## ÖMRÜNÜN 50 İLİNİ BDU-NUN JURNALİSTİKA FAKÜLTƏSİNDƏ MİLLİ KADRLARIN HAZIRLANMASINA SƏRF EDƏN BÖYÜK ZİYALI

Nəsir İmanquliyev xidmətindən söz açarkən vurğulamaq lazımdır ki, o, 1942-1945-ci illər müharibəsi zamanı mətbuatın rolundan namizədlik dissertasiyası yazıb, dərslikləri, dərs vəsaitləri, həmmüəllifi olduğu sanballı monoqrafiyaları, tərcümə ədəbiyyatının ən gözəl nümunələri sayılan kitabları ilə tanınıb. Böyük Vətən müharibəsindəki, quruculuq illərindəki fədakar əməyinə görə dəfələrlə orden və medallarla təltif olunan Nəsir İmanquliyev milli mətbuatımızın inkişafındakı xidmətlərinə görə iki dəfə "Qızıl qələm" mükafatına, "Əməkdar mədəniyyət işçisi", "Əməkdar jurnalist" fəxri adlarına layiq görülmüşdür. Bütün bunlar onun zəngin həyatının, yaradıcılığının kiçik bir yazıda qeyd olunan məqamlarıdır.

Dövrünün, zamanının aynasını yaradan Nəsir İmanquliyev ömrünün 50 ilini Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində milli kadrların hazırlanmasına sərf etmişdir. Onun müasir Azərbaycan jurnalistikasında ən böyük və danılmaz xidmətlərindən biri qəzetdə informasiya xidmətinin yüksək statusunun bərpası yolundakı yaradıcılıq əzmkarlığı olmuşdur. Mütəxəssislərin qənaətinə görə, qəzetdə informasiya yaradıcılığını ən vacib və gərəkli sahə hesab edən Nəsir İmanquliyev "Bakı" və "Baku" qəzetlərinə rəhbərlik etdiyi illərdə bu faktı daha təsdiq etmişdir ki, istənilən mətbu orqanın simasını, nüfuzunu, oxucu auditoriyasını onun düşünülmüş və peşəkarlığa söykənən informasiya siyasəti müəyyənləşdirir.

## "MİR CƏLAL MÜƏLLİM MİRZƏ CƏLİL ƏNƏNƏLƏRİNİ ƏDƏBİYYATDA DAVAM ETDİRİRDİSƏ, NƏSİR İMANQULİYEV BU ƏNƏNƏLƏRİ JURNALİSTİKADA, MƏTBUATDA YAŞADIRDI"

Professor Nərgiz Paşayeva onun fəaliyyətini özündən əvvəlki ziyalıların ənənələrini davamçısı tək qiymətləndirir: "Vaxtı ilə Mirzə Cəlillər, Şahtaxtılar, Faiqlər, Əlibəylər xaçaturovlara qarşı mübarizə aparırdılar. Onlar azərbaycandilli, türkdilli qəzetlər nəşr etdirirdilər. Bu, böyük hadisə, şücaət, hünər idi. Çünki o zaman çar Rusiyasında belə bir hünərə malik olan, Azərbaycan millətinə xidmət edən insanlar arxasız idilər. Onlar hökumət, dövlət tərəfindən dəstəklənmirdilər. Amma onların qəlbi, ürəyi gördükləri müqəddəs işlərə, amallara dəstək verirdi. Bu da həqiqi vətənpərvərlik idi. Nəsir İmanquliyev də elə bir məktəbin yetirməsidir. O, bütün həyatı boyu öz fəaliyyətində Mirzə Cəlil ənənələrini davam etdirmişdir. Əgər Mir Cəlal müəllim Mirzə Cəlil ənənələrini ədəbiyyatda davam etdirirdisə, Nəsir İmanquliyev bu ənənələri jurnalistikada, mətbuatda yaşadırdı."



Nəsir İmanquliyev geniş dünyagörüşlü, nadir mütəxəssis, savadlı, təcrübəli, siyasi cəhətdən həddindən artıq yetkin insan olaraq iz salıb. Belə simanın - Nəsir İmanquliyev mənalı ömür yolu, səmərəli elmi, pedaqoji fəaliyyəti, mətbuatımızın inkişafındakı xidmətləri geniş şəkildə tədqiqi və öyrənilməsi əhəmiyyət daşıyır.

Nəsir İmanquliyevin yetirmələrinin çoxu milli mətbuatımızın salnaməsini yaradan qələm sahiblərinin cərgəsindədir. O, cismən aramızda olmasa da əməlləri ilə qəlbimizə əbədi həkk olunub və həmişə böyük ehtiramla yad edilir. Nəsir İmanquliyev cəsarətli, iradəli, hünərli, həqiqəti deməyə və yazmağa qadir olan bir şəxsiyyət idi. O, insanlara yol göstərən, xeyirxahlıq edən nəcib insan idi. Odur ki, ziyalılar onu heç vaxt unutmur və əmlləri ilə yaşayır.

***Zümrüd BAYRAMOVA***

## "31 dekabr 50 milyonluq Azərbaycan xalqını həmrəy olmağa sövq etdi"

"Azərbaycanda 31 dekabr Həmrəylik Günü təbii ki, 1989-cu ildə Naxçıvanda "Sərhəd hərəkatı" ilə başlayıb". Bu sözləri SİA-ya açıqlaması politoloq Məhəmməd Əsadullazadə bildirib. Onun sözlərinə görə, bu, Azərbaycan xalqının milli həmrəyliyində, bütöv Azərbaycanın həmrəy olmasında, həmçinin Azərbaycan xalqının milli azadlıq hərakatında dönüş nöqtəsi idi: "Hesab edirəm ki, 31 dekabr məhz dünyada 50 milyon Azərbaycan xalqı həmrəy ol-




mağa sövq etdi. Həmin vaxt Naxçıvanda SSRİ ilə İran sərhəddi söküldü və digər ərazilərdə soydaşlarımız bir-birinə mənəvi cəhətdən yaxınlaşdı. Bu əlbəttə ki, tarixi-siyasi hadisədir. Dünyada yaşayan 50 milyon Azərbaycan xalqı müəyyən diaspora fəaliyyəti ilə müəyyən əlaqələrə malik olsa da konkret olaraq ciddi şəkildə tam formalaşmış həmrəyliyi yarada bilməmişdi. Qarabağ müharibəsində Azərbaycan xalqı həmrəy oldu, Vətən müharibəsində Ermənistana qalib gəldik. Azərbaycan xalqı ümumiyyətlə, öz tarixində taleyüklü məsələlərdə həmrəylik göstərdi. Amma dünya azərbaycanlılarının iş birliyi daha da sıx qurulmalı, həmçinin daha da həmrəy olmalıyıq".

***Abutel İlhamqızı***

**Artıq davamlı olaraq bütün dünya ictimaiyyəti Azərbaycanda dövlət əhəmiyyətli, xalqın, eləcə də dövlətin tarixinə yazılacaq qədər önəmli, vacib olan hadisələrin şahidi olur və cənab Prezident İlham Əliyevin praktik addımlarını görür, şübhəsiz ki, Ermənistan tərəfi də daxil olmaqla, bir çoxları özləri üçün nəticələr çıxarmalı olurlar. İndi hər kəs yaxşı bilir ki, zaman da dəyişir, reallıqlar da dəyişir, amma dəyişməyən yalnız Azərbaycan Prezidentinin xalqın arasında olmaq, ad gününü belə xalqla bir yerdə qeyd etmək ənənəsidir.**



# Prezident

## hərbçilərlə görüş zamanı sərt mesajlar verdi

Bu dəfə ölkə rəhbərimiz cənab İlham Əliyev ad gününü Azərbaycan Ordusu ilə, əsgər və zabitlərlə birgə qeyd etdi. Bəli, bu dəfə Ali Baş Komandan onun əmri ilə dərhal hücuma keçən, müqəddəs missiyadan dönməyən, şəhidlər verərək torpaqları işğaldan azad edən ordu ilə, əsgər və zabitlərlə bir yerdə oldu. Bir növ bu səfər əldə edilən qələbələrə, torpaqlarımızın işğladan azad edilməsi uğrunda mübarizliyinə, dönməzliyinə, müzəfərliyinə görə Ali Baş Komandanın öz ordusuna təşəkkür jesti olduğu da düşünülür. Ölkə rəhbərinin müharibə qəhrəmanlarına, şəhid ailələrinə, qazilərə və ümumilikdə hərbçilərə göstərdiyi qayğı da təkzibedilməzdir və bu, Azərbaycan Əsgərinə verilən dəyərin bariz nümunəsidir. Hərbçilərin bir sıra, eləcə də məişət problemlərinin belə həlli istiqamətində atılan addımlar, 2200 hərbçiyə mənzillərin verilməsi, ilin sonuna qədər 130 hərbçiyə yeni mənzillərin veriləcəyi barədə qərara gəlinməsi dövlətimizin, dövlət başçımızın hərbçilərə olan diqqət və qayqğısı deməkdir və sadalananları isbatlayır. Bu həm də təsdiq edir ki, Azərbaycan Ordusu, hərbçilərimiz ölkə rəhbərinin qayğısı ilə əhatə olunub və Ordumuzun müasirləşdirilməsi, beynəlxalq standartlara uyğunlaşdırılması göstərir ki, bundan sonra da bu qayğı davam etdiriləcək. Xüsusilə, ölkə rəhbərinin öz ad gününü hərbçilərlə bir yerdə keçirməsi bir çox məqamlara aydınlıq gətirir və təsdiq edir ki, ordu quruculuğuna, hərbi sahəyə diqqət var və bundan sonra daha çox olacaq.

Maraqlı bir sual ortaya çıxa bilər ki, niyə ilk öncə məhz Hadruta səfər edildi, oradan da Şuşaya üz tutuldu? Heç birimizin xatirəsindən 44 günlük Vətən müharibəsindəki Hadrut əməliyyatları çıxan deyil və bilirik ki, bu əməliyyat sayəsində düşməndən geri götürülən bu strateji qəsəbənin azad edilməsi ondan sonrakı əməliyyatların icra edilməsi üçün mühüm əməliyyat sayılır. Çünki, dağlıq ərazi olan Hadrutun geri alınması ətraf ərazilərə nəzarət imkanı demək idi və əbəs yerə deyildi ki, ermənilər ən çox müqaviməti də elə Hadrutda göstərdilər, elə bu dağlıq ərazilərdə olan döyüşlər ən şiddətli döyüşlərdən sayılır. Dəmir yumruğun daha təsirli olduğu yerlərdən biri də Hadrud idi və burada olan əməliyyatlar ermənilərə Azərbaycan Ordusunun məğlubedilməz olduğunu sübut edən əməliyyatlar oldu. Ən çox canlı qüvvəni məhz Hadrutda cəmləşdirən düşmən bununla belə məğlubiyyət açısını dadmalı oldu və dərk etdi ki, bundan sonra Azərbaycan Ordusunun qarşısı alınmazdır. Bir sözlə, Hadrut əməliyyatları gələcək qələbəmizin anonsunu vermiş oldu. "Hadrutdan sonra Şuşaya yolumuz açıldı", sözlərini də cənab Prezident əbəs yerə deməmişdi və buna görə də ilk növbədə məhz Hadruta səfər edilməsi təsadüfi hesab edilə bilməz.

Bəli, düşmənin silahlı qüvvələrinə Azərbaycan Ordusu elə bir dərs verdi, elə sarsıdıcı zərbə endirdi ki, yarım əsrə qədər müddətdə Ermənistan özünə gələ bilməyəcək. İtirdiyi texnikaya, canlı qüvvəyə, eləcə də vəsaitlərə görə işğalçı ölkə diz üstə çöküb və ayağa qalxmağa taqəti də yoxdur. Bəlkə də elə yarım əsrlik zaman fasiləsində topladığı hərbi texnikanı, silah-sursatı Ermənistan itirmiş oldu. Ola bilsin ki, belə bir silah-sursatı toplamaq üçün yarım əsr dediyimiz zaman bir tərəfə, Ermənistan kimi səfalət altında olan dövlət çox güman ki, hərbi texnika, silah-sursat üçün lazım olan vəsaiti belə bundan sonra heç yuxusunda görməyəcək və nə qədər təxribatlara əl atsa da bu ölkə Azərbaycan qarşısında dayana bilməyəcəyini çox yaxşı başa düşür. Başa düşür ki, bu vaxta qədər əllərinə topladıqları hərbi texnika, silah-sursatla, qurduğu istehkamlarla, ordu adlandırdığı silahlı qüvvələrlə Azərbaycan Ordusunun qarşısında dayana bilməyibsə, deməli, xırda dəstələrlə, kol dibində gizlənən diversantlarla, quldurlarla nəyə isə nail ola bilməz.

Bu da reallıqdır ki, hərbi eskalasiya riski qalmaqda davam edir və müharibə hədələri də var. Qazanılan zəfərlə bizim də kifayətlənmək niyyətimiz yoxdur və Böyük Qələbədən sonra ilk silahlı qüvvələr günündə cənab Prezidentin, "Azərbaycan hərb sahəsi ilə bağlı strategiyasını bundan sonra da davam etditəcək, ordunun müasir silahlarla təchizatı prosesinə ara verilməyəcək və bu məqsədlə hazırlanan kontraktlar mütləq şəkildə yerinə yetiriləcək", deməsi bunu təsdiq edir. Elə Hadrut ərazisində komanda briqadalarının yaradılması, eləcə də yeni infrastrukturun formalaşdırılması ordu quruculu prosesinin artıq yeni mərhələyə keçdiyini göstərir. Bu, onu deməyə əsas verir ki, həqiqətən də biz qazanılan zəfərlə kifayətlənmirik və ölkəmiz hərb sahəsi ilə bağlı strategiyasını daha da möhkəmləndirir, ölkənin təhlükəsizliyi daha həssas şəkildə qorunur.

Yeni texnikaların alınması barədə dəfələrlə bəyan edilib və ölkə rəhbəri də qeyd edib ki, biz bunu gizlətmirik və heç zaman da gizlətməmişik. Məsələ burasındadır ki, müasir tələblərə cavab verən hərbi texnikaların, silah-sursatın alınması, eyni zamanda yeni silahlı birləşmələrin yaradılması məhz yeni müharibə təhdidini aradan qaldırmaq məqsədi daşıyır. Çünki, nəzərə alsaq ki, Ermənistanın Qərbdə hələ havadarları, eləcə də bütün dünyaya səpələnmiş erməni lobbisi var və onlar bölgədə vəziyyəti bir daha gərginləşdirmək üçün dəridən qabıqdan çıxır, deməli təhdidlərin olmaması barədə demək də olmaz. Məzh hansısa status barədə axmaq fikirləri gündəmə gətirərək işğaldan azad olunan ərazilərə yiyələnmək, bu torpaqları bir də ələ keçirmək arzusu təhdidlərin olduğunu isbatlayır. Xatırlayırıqsa, bir vaxtlar "müharibə başlayarsa, erməni tankları Bakının küçələrində olacaq", deyən, amma sonra həmin tankları Hərbi Qənimətlər Parkında görən ermənilər dünyaya səs salaraq buna etiraz etməyə başladılar və heç şübhəsiz ki, bunun acısını dadanlar, revanşizm ideyası, qisas hissi ilə alışıb yananlar ən azından Ermənistanda var. Onlar məhz bu hisslərlə mütəmadi olaraq təxtibatlar törədir, atəşkəsi pozur, bununla hərbi avantüralara əl atırlar. Bax elə Hadrut ərazisində komanda briqadalarının yaradılması Ermənistan tərəfinin hərbi avantüralarına növbəti bir cavabdır.

Cənab Prezidentin Ermənistan tərəfinə müharibədən öncə də, 44 günlük müharibə dönəmində də, post-müharibə dönəmində də verdiyi sərt mesajlarının şahidi olmuşuq. Tək biz yox, bütün dünya bunun şahidi olub. "Ağıllarını başlarına yığsınlar", deyə hər dəfə ölkə başçımız ermənilərə aydın şəkildə mesajlar verib, doğru yolu göstərib və əks təqdirdə nə ilə qarşılaşacaqlarını da açıq şəkildə bildirib. Bunu dərk etməyənlər başları üzərində dəmir yumruğu görən zaman dərk etməli olublar. Yenə də ölkə rəhbərimiz Ermənistan tərəfinə çox aydın mesajlar verdi və bildirdi ki, bundan sonra heç kim Azərbaycana mane ola bilməyəcək, biz öz ərazi bütövlüyümüzü qoruyacağıq və bunun üçün bizim siyasi iradəmiz də var, gücümüz də.

Azərbaycan Respubliasının Prezidenti hərbçilərlə görüş zamanı sərt mesajlar verdi və kimlərinsə xam xəyallara düşməsinin mənasız olduğunu bəyan etdi. Ölkə rəhbəri xüsusilə vurğulayıb ki, əgər Ermənistan bizim üçün yenidən təhlükə mənbəyi olmağa cəhd edərsə, onların axırı ikinci Qarabağ müharisəində olduğu kimi olacaq və heç zaman imkan verilməyəcək ki, xalqımıza, dövlətimizə, ərazi bütövlüyümüzə hərhansı bir təhdid yaradılsın. Ali Baş Komandan hazırda Ermənistanda revanş haqqında düşünənlərə də öz sərt mesajlarını verib və diqqətə çatdırıb ki, heç nəyə baxmadan lazımi addımları atacağıq, hansıki bunun üçün siyasi iradəmiz də, gücümüz də var.

***İnam Hacıyev***

## Əlillik təyinatı ilə bağlı
# YENİ QAYDALAR
## belə olacaq



Bu xəbərimizdə həssas qrupu əhatə edən bir yeniliklə bağlı məlumat verəcəyik. Əlliyin qiymətləndirilməsi ilə bağlı göndərişlərin verilməsi qaydası dəyişib. Baş nazir Əli Əsədov bununla bağlı qərar imzalayıb. Yeni meyarları nəzərinizə çatdırırıq.

Əlillik yeni meyarlar ilə müəyyən olunacaq. Bu məqsədlə 100-ə yaxın qanunvericilik aktına dəyişiklik olunub. Baş nazir Əli Əsədovun verdiyi qərara əsasən, əlilliyin qiymətləndirilməsi məqsədilə tibbi-sosial ekspertiza müayinəsinə göndərişlərin verilməsi qaydası dəyişib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əlillik Siyasəti şöbəsinin müdir müavini Ülvi Hüseynov deyir ki, insanın 7 əsas həyat fəaliyyəti kateqoriyası var ki, əlillik də məhz bunlara görə təyin edilir. Ülvi Hüseynovun sözlərinə görə, yeni meyarlar  tibbi modeldən sosial modelə keçidlə bağlı hazırlanıb./xezerxeber.az

# Fransız deputat
## həmkarlarının Xankəndiyə səfərini təxribat adlandırıb

Fransada fəaliyyət göstərən Azərbaycanın Dostları Assosiasiyası ölkə prezidentliyinə Respublikaçılar Partiyasının namizədi Valeri Pekrezin fransalı deputatlar Bruno Riteiro və Mişel Barnye ilə birlikdə Azərbaycanın Qarabağ bölgəsinə qanunsuz səfərinə etirazını bildirib.



Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti, Fransa Milli Assambleyasında Fransa-Azərbaycan dostluq qrupunun vitse-prezidenti Jerom Lamberin imzaladığı bəyanatda birmənalı şəkildə bildirilib ki, xanım Pekrezin bu addımı təxribat xarakterlidir, çünki Xankəndi şəhəri beynəlxalq qurumlar tərəfindən Azərbaycan ərazisinin bir hissəsi kimi tanınır: "Bu əraziyə səfər Azərbaycanın suveren hakimiyyət orqanları olmadan təsəvvür edilə bilməz. Əgər xanım Pekrez sülhü müdafiə etmək istəyirsə, tarix dərslərini yenidən nəzərdən keçirməklə başlamalıdır. Qarabağa səfər etməklə Azərbaycanın suverenliyini pozaraq, təxribat törədir və sülh quruculuğunda hər hansısa rolu oynamaq hüququndan özünü məhrum edir".

Qeyd edilib ki, Azərbaycan da Fransa kimi dünyəvi ölkədir: "Buna görə də biz başa düşə bilmirik ki, bu seçkiqabağı kampaniya zamanı edilən bəyanatlar niyə şərqi xristianlara qarşı qondarma bir dini təhlükənin qabardılmasına doğru yönəldilir. Papa həzrətlərinin son illərdə bir neçə dəfə səfər etdiyi Azərbaycan ərazisində xristianlar tam əmin-amanlıq şəraitində yaşayırlar".

Assosiasiya nəzərə çatdırıb ki, Qarabağ münaqişəsi iki dövlət arasında sırf ərazi münaqişəsi olub: "Ermənistan otuz il ərzində BMT Təhlükəsizlik Şurasının qınaqlarına baxmayaraq, Azərbaycan ərazisinin demək olar ki, 20 faizini hərbi yolla işğal altında saxlayıb. Ötən il atəşkəsin bərpa olunmasından sonra bu ərazilərin qanuni yolla geri alınması Fransanın 1918-ci ildə Elzas-Lotaringiyanı alman işğalçı qüvvələrindən azad etməsi kimi beynəlxalq hüququn qələbəsi kimi qiymətləndirilməlidir".

# Türkiyənin "Sabah" qəzeti: Türk dünyasının İlhamı!

**Türkiyə Prezidenti yanında Təhlükəsizlik və Xarici Siyasət Şurasının üzvü, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun rəhbəri professor Aygün Attarın Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yubileyi ilə bağlı açıqlaması nüfuzlu "Sabah" qəzetində "Türk dünyasının İlhamı!" sərlövhəsi ilə dərc olunub.**

AZƏRTAC xəbər verir ki, Türkiyənin ən populyar, çoxtirajlı qəzeti professor Aygün Attarın açıqlamasını türkdilli ictimaiyyətə belə təqdim edib: "Qazandığı şanlı Qarabağ Zəfəri ilə türk dünyasına böyük xoşbəxtlik bəxş edərək Türk Dövlətləri Təşkilatının Türk Dünyasının Ali Ordeninə layiq görülən, Azərbaycan dövlətinin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 60 illik yubileyidir. Mübarək olsun".

Təbrik açıqlamasında, həmçinin Prezident İlham Əliyevin yüksək keyfiyyətləri, nümunəvi ailəsi, eləcə də keçdiyi dərin mənalı həyat yolu barədə məlumat verilir.



Prof. Dr. Aygün Attar yazdı: Türk dünyasının İlham'ı!

Cumhurbaşkanlığı Güvenlik ve Dış Politikalar Kurul Üyesi, Türkiye Azerbaycan Dostluk, İşbirliği ve Dayanışma Vakfı Başkanı ve Dünya Azerbaycanlılar Koordinasyon Şurası Üyesi Prof. Dr. Aygün Attar, 60 yaşına giren Azerbaycan Devlet Başkanı İlham Aliyev'in doğum gününe özel açıklamalarda bulundu.

İŞTE O AÇIKLAMALAR

PANDORA

Prof. Dr. Aygün Attar

# Meksika mətbuatında erməni yalanları ifşa edilib

**Meksikanın nüfuzlu KİV-dən olan "ContraReplica" qəzetində səfir Məmməd Talıbovun Ermənistanın keçmiş münaqişə ərzində törətdiyi müharibə cinayətləri, hazırda Cənubi Qafqazda gərginliyin artmasına səbəb olan təxribatçı addımları, regionun yeni reallıqları, burada Azərbaycan tərəfindən görülən işlər və bölgədə davamlı sülhün əsas şərtləri barədə məqaləsi dərc olunub.**



viernes 24 de diciembre de 202

ContraReplica

MAMMAD TALIBOV EMBAJADOR DE AZERBAIYÁN

COLUMNA INVITADA

Seguir a @ContraReplicaMX

Mammad Talibov, Embajador de Azerbaiyán

Columnas lunes 13 de diciembre de 2021 -

Escribo con relación a la columna por la Embajadora de Armenia y las declaraciones pronunciadas en la entrevista realizada con Johnny Lamont, publicadas el 3 de diciembre en Contra Réplica.

Antes que nada, resulta bastante extraño escuchar todo eso de la representante de un país reconocido por todo el mundo como un agresor que había ocupado un quinto del territorio del país vecino y expulsado 15% de su población total y a pesar de las demandas de la comunidad internacional durante casi 30 años, nunca quiso abandonar su política de ocupación y retirar sus tropas de los territorios internacionalmente reconocidos de mí país. Sería mejor si la autora de la columna aceptara

Azərbaycanın Meksikadakı səfirliyindən AZƏRTAC-a bildirilib ki, yazıda ilk olaraq, Ermənistanın 30 illik işğal dövründə törətdiyi müharibə və insanlıq əleyhinə cinayətləri, habelə 44 günlük müharibə zamanı münaqişə zonasından kənarda yerləşən şəhərləri ballistik raket hücumlarına məruz qoyaraq mülki soydaşlarımız arasında çoxsaylı təlefata səbəb olması, eləcə də işğaldan azad olunmuş ərazilərdə müşahidə olunan erməni vandalizmi, burada aparılmış kütləvi minalama və törətdiyi fəsadlar haqda məlumat verilir.

Sonra bölgədə periodik olaraq özünü büruzə verən gərginliyin səbəbinin Ermənistanın hərbi-siyasi rəhbərliyinin atdığı addımlar, bu xüsusda bu ölkənin keçmiş müdafiə nazirinin Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərinə qanunsuz səfəri, Ermənistan silahlı qüvvələrinin 60-a yaxın hərbi qulluqçusunun Azərbaycan Ordusunun Laçın ərazisindəki mövqelərinə aparan yolda cəmləşməsi, Laçın və Kəlbəcərdəki mövqelərimizin intensiv atəşə tutulması kimi hallar olduğu bildirilir.

Buna baxmayaraq, Azərbaycanın üçtərəfli bəyanatlardan irəli gələn tələblərə sadiq qaldığı, hazırda bütün səylərini bölgənin yenidən qurulmasına, nəqliyyat yollarının və kommunikasiya xətlərinin bərpa edilməsinə və bölgənin hərtərəfli inkişafına yönəltdiyi vurğulanır.

Yazıda, həmçinin Ermənistan tərəfinin destruktiv ritorikasının başlıca elementlərindən olan "hərbi əsirlər" məsələsinə də fikir bildirilərək, Azərbaycan tərəfindən həbs edilmiş erməni əsilli şəxslərin 2020-ci il 10 noyabr Bəyanatından sonra Azərbaycan ərazisinə keçərək burada terror aktları törətməyə cəhd etdikləri, bu səbəbdən onların hərbi əsir deyil, terrorçu olduqları və hazırda Azərbaycanın aidiyyəti orqanları tərəfindən məsuliyyətə cəlb edildikləri, bununla belə, xoş niyyət göstəricisi olaraq sözügedən şəxslərdən cinayətkar əməllərdə birbaşa olaraq iştirak etməmiş olanların azadlığa buraxıldığı söylənilir.

Sonda Azərbaycanın sərhədlərin demarkasiyası və delimitasiyası işinin başlanması və yekun sülh müqaviləsinin işlənib hazırlanmasına dair Ermənistana dəfələrlə müraciətlər etsə də, bu günədək heç bir müsbət cavab almadığı deyilir və bölgədə davamlı sülhə nail olunması üçün Ermənistanın qonşularına qarşı ərazi iddialarından əl çəkməli, Azərbaycanın ərazi bütövlüyünü tanımalı, xalqını barışığa hazırlamalı və region ölkələri ilə mehriban qonşuluq şəraitində yaşamağı öyrənməli olduğu bildirilir.

# Deniz Tansi:
## "Türkiyə-Ermənistan yaxınlaşması yeni Avrasiya nizamının tərkib hissəsi olacaq"

**Türkiyəli politoloq, Yedditəpə Universitetinin (İstanbul) dövlət idarəçiliyi kafedrasının müdiri Deniz Tansi "Caliber" analitik mərkəzinə müsahibəsində Türki-Ermənistan münasibətləri və regional kommunikasiyaların açılması məsələsi ilə bağlı fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik**

*- Türkiyə cəmiyyəti Ermənistanla münasibətlərin normallaşması ehtimalını necə qarşılayır?*

- Bir tərəfdən Türkiyə cəmiyyəti bu məsələyə həssas yanaşır. Digər tərəfdən, Azərbaycanın yanaşması vəziyyəti yüngülləşdirir. Normallaşma prosesi asan olmayacaq.

*- Özünüz də Ermənistan-Türkiyə münasibətlərinin normallaşmasının mümkünlüyünə inanırsınızmı?*

- Hesab edirəm ki, Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşması prosesi Rusiya-Azərbaycan-Ermənistan münasibətləri ilə birlikdə gedir. Ainin Azərbaycan və Ermənistana münasibəti ortaqdır. Hər iki ölkənin liderləri Soçi və Brüsseldə görüşüblər. Zəngəzur dəhlizi həm türk dünyası, həm də Çinin "Bir kəmər, bir yol" təşəbbüsü üçün Mərkəzi Asiyaya körpüdür. Yeni boru kəmərlərinin çəkilişinə başlanacaq, yeni ticarət yolları açılacaq, investisiyalar gələcək. Bunun da Azərbaycan üçün üstünlüyü var.

Beləliklə, Türkiyə-Ermənistan yaxınlaşması yeni Avrasiya nizamının tərkib hissəsi olacaq. Azərbaycan bu ideyanı dəstəkləyir və Türkiyə Azərbaycanın maraqlarında güzəştə getməyəcəyini bəyan edib.

*- Danışıqlar zamanı Türkiyə Ermənistanla münasibətlərin normallaşması üçün vacib şərtlərdən biri kimi qondarma "soyqırım" mövzusunun bağlanması tələbini irəli sürəcəkmi?*

- Bu, praqmatik yanaşma olacaq. Türkiyə heç vaxt "soyqırım" ittihamlarını qəbul etmir. Ermənistan israr etsə, bu, yalnız Qərb dövlətlərinin maraqları naminə olacaq. Erməni lobbisi "soyqırım" mövzusunu manipulyasiya edir, lakin Ermənistanı kasıb və zəif görməyə üstünlük verir, çünki bu halda İrəvanın onların köməyinə ehtiyacı olacaq. Erməni diasporasının maraqlarına güclü, çiçəklənən Ermənistan daxil deyil.



*- Türkiyə ilə barışmaqdan Ermənistan nə qazanacaq?*

- Ermənistan-Türkiyə sərhədi açılsa, Ermənistan çox qazanacaq. Ermənistan ilk növbədə Trabzon limanından və Zəngəzur dəhlizindən istifadə edə biləcək. Ermənistan üçün bu, həm də təkcə Cənubi Qafqazda, Mərkəzi Asiyada deyil, həm də dünya ticarətində sıçrayış deməkdir.

*- Necə düşünürsünüz, Soçi və Brüssel görüşlərindən sonra Cənubi Qafqaz regionunda kommunikasiyaların açılması üçün Ermənistandan konkret əməli addımlar gözləmək lazımdırmı?*

- Azərbaycanla Ermənistanın yaxınlaşması və siyasi liderlərin sammit görüşləri Türkiyə və Rusiya tərəfindən dəstəklənir. Qərb burada uğursuzluğa düçar oldu. Amma bütün prosesi bütövlükdə qiymətləndirmək hələ tezdir, çünki o, çox kövrəkdir.

Amma risklərə baxmayaraq, optimistəm. Və düşünürəm ki, gec-tez Ermənistanda insanlar başa düşəcəklər ki, kommunikasiyaların blokdan çıxarılması onların ölkəsinə yalnız xeyir verəcək.

*Tərcümə - Elçin Bayramlı*

# Ali Baş Komandan

## hər zaman Ordumuzun yanındadır



**“Bildiyimiz kimi, ölkə başçısı cənab İlham Əliyev ad günlərini Azərbaycan xalqı ilə birlikdə keçirir. Hər il şahidi oluruq ki, ad günlərində Prezident cənab İlham Əliyev adətən sosial obyektlərin açılışında iştirak edir, məcburi köçkünlərlə və şəhid ailələri ilə görüşür. 50 illiyində məcburi köçkünlərlə bərabər Ağcabədidə olan ölkə başçısı, 60 illiyini də Qarabağda, yeni Şuşada keçirdi”. Bu sözləri SİA-ya açıqlamasında deputat Cavid Osmanov deyib.**

Onun sözlərinə görə, cənab Prezident İlham Əliyevin öz doğum günündə Hadrut qəsəbəsində hərbi hissənin açılışında iştirak etməsi əlamətdar hadisə olmaqla yanaşı, eyni zamanda ondan xəbər verir ki, Müzəffər Ali Baş Komandan hər zaman Azərbaycan Ordusunun yanındadır və ordu quruculuğu ölkə başçısı üçün prioritetdir: ”Ordu quruculuğu istiqamətində aparılan işlər arasında hərbi hissələrin yaradılması xüsusi yer tutur və artıq Azərbaycanın bütün bölgələrində əksər hərbi hissələr lazımi standartlara cavab verir. Hərbi sahəyə böyük diqqət göstərən cənab Prezident İlham Əliyev hər zaman qeyd edir ki, hərbçilərin xidmət şəraiti elə olmalıdır ki, onlar istənilən vəzifəni icra edə bilsin, hazırlıq üçün, məşq üçün yaxşı şərait olsun. Hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, onların məişət-mənzil problemlərinin həlli də həmişə diqqət mərkəzindədir. 20 il orduda qüsursuz xidmət etmiş hərbçilərə dövlət tərəfindən mənzillər verilir və bu günə qədər 2200-dən çox hərbçi dövlət tərəfindən mənzillə təmin olunmuşdur. Cari ilin sonuna qədər 130 hərbçi ailəsinə yeni mənzillər veriləcəkdir. Bir sözlə, ordu dövlət tərəfindən, Prezident, Ali Baş Komandan tərəfindən daim diqqətlə əhatə olunub. Bu diqqət və qayğının nəticəsində bu gün Azərbaycanın Müzəffər Ordusu dünyada məhz müzəffər, döyüş meydanında qalib gəlmiş ordu kimi tanınır. Müharibədən sonra da ordu quruculuğu prosesi uğurla davam etdirilir. Orduya ayrılan xərclər daha da artırılıb. Müharibədən sonra imzalanmış yeni kontraktlar icra edilir. Yeni kontraktlar əsasında artıq ölkəyə Ordumuzun təchizatı üçün ən müasir silah-texnika gətirilir. Həm hərbi texnikanın alınması, həm hərbi xərclərin artırılması, eyni zamanda, hərbçilərin maaşlarının artırılması onu göstərir ki, müharibə başa çatsa da, ordu quruculuğu prosesi dayanmayacaq. Müharibədən sonra həm müasir tələblərə cavab verən silah-sursat, texnikalar alınır, eyni zamanda, yeni silahlı birləşmələr yaradılır. Azərbaycan Ordusu bundan sonra da öz peşəkarlığını və yüksək mənəvi ruhunu qoruyacaqdır”.

Deputat fikirlərinə davam edərək həmçinin qeyd edib ki, cənab Prezident, Müzəffər Ali Baş Komandanın açılışında iştirak etdiyi yeni tipli hərbi hissənin Hadrut qəsəbəsində yerləşməsi xüsusi əhəmiyyət kəsb edir: ”Çünki bu qəsəbənin yerləşdiyi coğrafi mövqe bölgə üçün özünəməxsusluğu ilə seçilir. İkinci Qarabağ müharibəsi zamanı da Hadrut əməliyyatı xüsusi əhəmiyyətə malik olan bir əməliyyat idi. Yeni hərbi hissənin açılışı zamanı hərbçilər qarşısında çıxış edərəkən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Hadrut əməliyyatının əhəmiyyəti haqqında danışarkən qeyd edib ki, strateji qəsəbəni işğaldan azad edilməsi müharibə zamanı gələcək planlarımıza əlavə dəstək verdi. Hadrut işğalçılardan azad edilməsəydi, gələcək əməliyyatlarımız daha böyük çətinliklərlə üzləşə bilərdi. Təsadüfi deyil ki, işğaldan ilk azad edilmiş şəhər olan Cəbrayıldan sonra ikinci böyük yaşayış məntəqəsi Hadrut olmuşdur. Müzəffər Azərbaycan Ordusu ötən il oktyabrın 9-da bu qəsəbəni işğalçılardan azad etmişdir. Mənfur düşmən 30 il ərzində işğal altında olan bütün torpaqlarda güclü istehkamlar və bir neçə xətdən ibarət müdafiə sədləri qurmuşdu. Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzur bölgəsinin təbii relyefi də düşmən üçün əlverişli idi. Çünki bu dağlarda, təpələrdə yerləşərək onlar böyük hərbi üstünlüyə malik idilər. Ona görə bizim hərbçilərimizin həm peşəkarlığı, həm fiziki gücü, mənəvi hazırlığı, vətənpərvərliyi, fədakarlığı bu şərəfli Qələbəmizə nail olmaq üçün bizə imkan yaratdı. Hərbi əməliyyatlar dövründə Ermənistan hər vəchlə çalışırdı ki, Hadrutu öz nəzarəti altında saxlasın. Ermənistan öz ordusunun mənəvi-psixoloji vəziyyətini anlayaraq Hadrut haqqında yalanlar yayırdı. Hadrut azad edildən sonra Ermənistan ordusunda fərarilik halları daha geniş vüsət almış və Ermənistan tərəfinin etirafına görə müharibə zamanı 10 min fərari olmuşdur. Hadrut əməliyyatından sonra Azərbaycan ordusu şərəfli missiyasını davam etdirərək ardıcıl olaraq Füzuli, Zəngilan, Qubadlı rayonları və Laçının cənub hissəsini işğalçılardan azad etdi. Ordumuz faktiki olaraq Laçın dəhlizinə çıxdı və Laçın dəhlizini nəzarətdə saxladı.

Çıxışı zamanı Şuşa əməliyyatlarından bəhs edən Müzəffər Ali Baş Komandan vurğuladı ki, Hadrut işğalçılardan azad edilməsəydi, Şuşaya gedib çatmaq daha çətin olardı. Şuşa əməliyyatı artıq bir dastana çevrilib. Dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində Şuşa əməliyyatı haqqında indi müzakirələr gedir, təhlillər aparılır və bir çoxları, xüsusilə Şuşada olmuş insanlar inana bilmirlər ki, Azərbaycanın qəhrəman övladları yüngül silahlarla qayalara dırmaşaraq bizim mədəniyyət paytaxtımız olan, Qarabağın tacı olan Şuşanı işğalçılardan azad etdilər. 44 günlük İkinci Qarabağ müharibəsi Ermənistan ordusunun tamamilə darmadağın edildiyini qeyd edən Prezident cənab İlham Əliyev əgər Ermənistan yenidən təhlükə mənbəyi olmağa cəhd edərsə, onların axırı İkinci Qarabağ müharibəsindəki kimi olacaqdır. Bunu etmək üçün siyasi iradəmiz və gücümüz vardır, deyə bu ölkəyə bir daha xəbərdarlıq etdi. Vətən müharibəsi günlərində bütün dünya Azərbaycan Ordusunun gücünü gördü. Azərbaycan xalqı hədəfinə nail olaraq işğal altındakı torpaqları azad etdi. Xalq öz Prezidentinə və Qələbəyə hər zaman inanırdı. Bu gün üçrəngli bayrağımız işğaldan azad olunmuş torpaqlarda, o cümlədən Şuşada dalğalanır. 60 illik yubileyində Şuşada səfərdə olan cənab Prezident İlham Əliyev Cıdır düzündə çıxış edərək bildirib ki, Qarabağda Azərbaycan muğamı əbədi səslənəcəkdir. Şuşada təşkil olunan tədbirlər bu torpaqların Azərbaycan xalqına, Azərbaycan mədəniyyətinə məxsus olmasını təsdiqləyir. Şuşada Cıdır düzündə yenə də Azərbaycan musiqisinin səsi gəlir. ”Xarıbülbül” festivalında Ulu Öndərin Şuşa haqqında tarixi sözlərinin bir hissəsi videoformatda təqdim edildi. Necə böyük inamla, necə böyük sevgi ilə Heydər Əliyev deyirdi ki, biz Şuşaya qayıdacağıq, inanın ki, qayıdacağıq. Bundan sonra bu torpaqlarda Azərbaycan xalqı əbədi yaşayacaq, bundan sonra Qarabağda Azərbaycan muğamı əbədi səslənəcək”.

***Arzu Qurbanzadə***

# Milli Məclisin

## növbəti plenar iclası keçirilib

**Dünən Milli Məclisin payız sessiyasında növbəti plenar iclası keçirilib. İclasda gündəliyin təsdiqindən sonra cari məsələlərin müzakirəsinə başlanıb.**

Belə ki, cari məsələlərdə deputatlar Əli Məsimli, Aqil Abbas, Razi Nurullayev, Etibar Əliyev, Aqiyə Naxçıvanlı, Soltan Məmmədov, Müşfiq Cəfərov, Müşfiq Məmmədli, Ramil Həsən, Bəhruz Məhərrəmov çıxış ediblər. Deputatlar təmsil etdikləri dairələrdə seçiciləri düşündürən və gündəmdə olan bəzi aktual məsələlərə dair fikirlərini səsləndirib, təkliflərini irəli sürüblər. Sonra gündəlikdəki məsələlərin müzakirəsi başlayıb. Milli Məclisin sədri Sahibə Qafarova gündəliyin birinci məsələsinin gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən müvafiq icra hakimiyyəti orqanının illik məlumatı haqqında olduğunu bildirib.

Məlumatı təqdim edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin (AQUPDK) sədri Bahar Muradova çıxışında gender bərabərliyinin təmin edilməsi ilə bağlı 2020-ci ildə görülən işlərdən danışaraq bu ilin ölkəmizin və xalqımızın həyatına erməni faşizmi üzərində qazanılmış tarixi Qələbə ili kimi daxil olduğunu vurğulayıb. Qazanılan böyük Qələbə, həm də COVID-19-un cilovlanması istiqamətində əldə edilən nailiyyətlər ilə yanaşı, müharibə və pandemiyanın təsirinə məruz qalmış minlərlə soydaşımızın müxtəlif problemlərlə üzləşdiyini, ailələr-



də və cəmiyyətdə narahatlıq doğuran bəzi halların baş verdiyini diqqətə çatdırıb. Komitə sədri 2020-ci ildə Azərbaycanda gender bərabərliyinin təmin edilməsinə yönəlik zəruri alət və mexanizmlərin inkişafı istiqamətində atılan mühüm addımlar barədə danışıb, normativ hüquqi bazanın təkmilləşdirilməsi sahəsində görülən işlər barədə məlumat verib.

Sonra Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova çıxış edərək bildirib ki, ”Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə əsasən, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 2020-ci il üzrə fəaliyyəti haqqında parlamentə təqdim olunan illik məlumat 52 səhifədən, giriş və gender bərabərliyinin təmin edilməsi ilə bağlı istiqamətləri özündə ehtiva edən 4 hissədən ibarətdir. Sənəd bütövlükdə Azərbaycan dövlətinin gender bərabərliyinin təmini üzrə həyata keçirdiyi siyasətin yerinə yetirildiyini təsdiqləyir və qənaətbəxşdir. Bildirilib ki, mövcud pandemiya, müharibə və post müharibə şəraitinə baxmayaraq, komitə bir sıra yeni layihələr həyata keçirib, qanunvericiliyin təkmilləşdirilməsi sahəsində mühüm sənədlər hazırlayıb.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev ”Turizm haqqında” qanun layihəsini üçüncü oxunuşda təqdim edib. Bildirilib ki, layihənin ikinci oxunuşda müzakirəsi zamanı deputatlar çıxış edərək bütövlükdə qanun layihəsini dəstəklədiklərini ifadə ediblər və sənədin təkmilləşdirilməsinə dair bəzi təkliflər səsləndiriblər. Diqqətə çatdırılıb ki, sənədin üçüncü oxunuşu ilə bağlı komitənin genişləndirilmiş iclası keçirilib və qaldırılan məsələlər layihənin müəllifləri ilə ətraflı müzakirə olunub. Diqqətə çatdırılıb ki, məsələlərin bir çoxu turizmlə bağlı ümumi problemləri əhatə edir, digər hissəsi qanunun qəbulundan sonra icrası ilə bağlı tövsiyələrdir. Turizm Agentliyi belə qərar verib ki, qaldırılan bütün məsələlər Qanunun qəbulundan sonra müvafiq sənədlərin hazırlanması zamanı nəzərə alınacaq. Komitə sədri onu da bildirib ki, sənəddə deputatların dörd istiqamətdə təklifləri nəzərə alınıb və qanunun müvafiq maddələrinə dəyişikliklər edilib.

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov məlumat verib. Layihəyə əsasən, Məcəlləyə turizm haqqında qanunvericiliyin pozulması ilə əlaqədar yeni 428-1-ci maddə əlavə olunur. Komitə sədri Musa Quliyev Əmək və sosial siyasət, deputatlar Fazil Mustafa Mədəniyyət və Məzahir Əfəndiyev İqtisadi siyasət, sənaye və sahibkarlıq komitələrinin Məcəlləyə edilən dəyişikliyi dəstəklədiklərini bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul olunub. Deputat Hikmət Məmmədov bəzi məsələlərlə bağlı fikirlərini bildirdikdən sonra Ailə Məcəlləsinə edilən dəyişikliklər səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.





# Demokratiya torunda açılmış deşik, hədəf Paşinyandır

**Siyasətdə əbədi dostlar yox, əbədi maraqlar olur. Dünya siyasətində isə bu aforizm bir az daha kəskin formada tətbiq edilir. Yəni maraqlar dostları yeməklə özünü əbədiləşdirir. Bizim regionda da belədir, zəiflər daim güclülərin qapazı altında olur, lazım gələndə isə onların "havasına" oynamayanları oyundankənar vəziyyətə salırlar. Bəli, böyük oyunçulara lazım olmayan kiçik qruplar, yaxud fərdlər çox asanlıqla siyasət səhnəsindən çıxarılır, başqaları ilə əvəz edilir, bu da yetməyəndə aradan götürülür.**

2018-ci ildə Ermənistanda baş verənləri yadımıza salaq. Universitetdən qovulan, ali təhsil almağa savadı olmayan, əvəzində siyasi maxinasiyalar ustası sayılan, Ermənistanın birinci prezidenti Levon ter-Petrosyandan dərsi alan Paşinyan adlı anarxist meydana çıxdı və ölkənin əvəzedilməz hakimi-mütləqi sayılan "Qarabağ klanı"nı nəinki hakimiyyətdən uzaqlaşdırdı, həm də onlara qarşı cinayət işinin açılmasını təmin edə bildi. Bəs hər gün meydanlarda polisin dəyənəyinə tuş gələn Nikola bu cəsarəti kim vermişdi? Bir gözündən məhrum Levonmu? Yox, onun gücü olsaydı öz haqq-hakimiyyətini Kocaryana yedirtməzdi. Bəli, o əl uzaqda idi və Paşinyanı uzaqdan idarə edirdi. Onun milyonları, demokratiya haqqında danışdığı nağıllar gələcək baş nazirin başını dumanlandırmışdı. İstifadə olunandan sonra atılacağını heç ağlına da gətirmirdi.

3 il bundan qabaq verilmiş proqnozlar bu gün özünü doğruldur. Sorosun rejissorluğu və Nikol Paşinyanın baş rol aldığı demokratiya komediyası Ermənistanda finala yaxınlaşır. Necə və niyə? Bunun səbəbini Ermənistanda keçirilmiş özünüidarəetmə orqanlarına seçkilərin üçüncü mərhələsindən 2 gün sonra ABŞ səfirliyinin yaydığı bəyanatda axtarmaq lazımdır. "Ermənistanda demokratiyanın sabitliyi və bu illər ərzində ölkənin əldə etdiyi əhəmiyyətli irəliləyiş"lə yanaşı, bəyanatda müşahidəçilərin dərhal qeyd etdiyi bir ifadə də yer alıb: "Biz müxalifət namizədlərinə təzyiqlər barədə də xəbərlər almışıq və hakimiyyəti bu məsələni araşdırmağa çağırırıq".



Bu açıqlama bəzi ekspertlərin Paşinyanın bir sıra geosiyasi mərkəzlərlə izdivacından sonar baş tutan "bal ayı"nın sona yaxınlaşdığını bəyan etməsinə əsas verib. Deyək ki, səfirlik açıq şəkildə bildirir ki, əvvəllər hakimiyyətə bağışlanan çox şey bundan sonra bağışlanmayacaq. Düzdür, seçkilərdə bəzi namizədlərə təzyiqlər olub, hüquqazidd hərəkətlər də qeydə alınıb, amma ABŞ-dan belə bir təlimatın veriləcəyini Ermənistanda heç kim gözləmirdi. Halbuki Paşinyanın rəhbərlik etdiyi hakimiyyət komandası dünya mərkəzlərinin regionun geosiyasi formalaşdırılması üçün diqqətlə hazırlanmış planlarını həddən artıq səylə yerinə yetirir. Belə olan halda amerikalılar və ya avropalılar hansısa demokratiya naminə belə parlaq fürsəti kiməsə və nəyəsə qurban verirlər? Onlar Paşinyan hakimiyyətinin demokratik normaları addımbaşı pozmasına və diktaturaya doğru sürətlə sürüşməsinə gözlərini bərk-bərk yumdular ki, əllərində kifayət qədər kompromatlar olsun, lazım gələndə Paşinyana yerini göstərə bilsinlər, onu daha asan idarə edə bilsinlər. Və məqsədlərinə qismən də olsa çata biliblər. Baş nazirin Rusiyaya tərəf meyllənməsinə etiraz aksiyaları ilə cavab verilir, sərbəst addım atmaq istəyi ona "demokratiya şapalağı" bahasına başa gəlir.

Bəli, Ermənistanda çoxdan başa düşürlər ki, demokratiya və insan haqları Qərb dünyasına sadəcə, öz maraqlarına çatmaq üçün bir vasitədir və yaxşı işlənmiş mexanizmlərin köməyi ilə ona uyğun istifadə olunur. Ermənistanda son üç ildə sözün həqiqi mənasında bu həqiqət klassik şəkildə öz təsdiqini tapıb. Səfirliyin bəyanatından bir neçə gün sonra, dekabrın 10-da birdən-birə üç siyasi məhbus - "Hayastan" blokunun deputatları Armen Çarçyan, Mxitar Zakaryan və Artur Sarkisyan ölkədən getməmək barədə vəsatətlə azadlığa buraxıldılar. Qanunun bütün tələblərinə məhəl qoymayan hakimiyyətin inadkarlıq və təkəbbürlə onları dəmir barmaqlıqlar arxasında saxlamaqda davam etməsi ən azı qəribə görünürdü. Amerikalılar Paşinyanı yumşaq şəkildə söydükdən sonra həbs-qətimkan tədbirinin dərhal dəyişdirilməsinə az adam diqqət yetirdi. Paşinyana deyildi ki, çox uzağa gedirsən, cilovu bir az boşalt ki, ictimaiyyət qarşısına çıxmağa üzün olsun.



Dekabrın 15-də Nikol Paşinyanın Brüsselə səfəri bütün Qərb mərkəzləri tərəfindən alqışlandı, Ermənistan və Azərbaycan liderlərinə ünvanlanan məktublarda "regionda dinc eranın başlanğıcı" kimi qeyd edildi. İrəvana qayıdan Paşinyan daha iki müxalifət liderinin zaminə buraxılmasını əmr etdi. Dekabrın 17-də Gorus şəhərinin vitse-meri Menua Hovsepyan, ertəsi gün isə Qacaranın meri Manvel Paramazyan azadlığa buraxıldı. Halbuki hər iki şəxs həbs edilmiş digər deputatlar kimi açıq-aşkar günahsız olmalarına rağmən bir neçə ay Paşinyanın "əsirliyində" qalmalı olmuşdular. Beynəlxalq təşkilatların hesabatında həmin dörd nəfərin siyasi məhbus kimi qeydiyyata alınması da "demokratiya mücəssəməsi" sayılan Nikolun reputasiyasına heç bir təsir etmədi. Çünki Qərb buna imkan verdmədi, hesabatda yazılanlar da silindi.

Lakin görünür, bu cür aşkar qanun pozuntuları, Paşinyan tərəfindən qanunun tələblərinə həddən artıq təxribat xarakterli etinasızlıq Qərbdəki sahiblərini nəhayət utandırdı, ona qarşı cəza tədbiri görməkdən başqa çıxış yolu qoymadı. Doğrudan da, artıq 3 ildən artıqdır ki, Qərb ölkələrinin Ermənistandakı səfirliklərinin və beynəlxalq hüquq müdafiə təşkilatlarının ünvanına ittihamlar səslənir. Onlar inadla susurlar, Paşinyan isə cəzasızlıqdan ruhlanaraq siyasi opponentləri ilə kobud rəftar edir. Onun diktatorluğu, o cümlədən adi vətəndaşlara - etiraz aksiyalarının iştirakçılarına qarşı zorakılığı isə deyəsən Qərbi narahat etmir. Amma görünür vəziyyət dəyişib. Vaşinqton və Brüssel Nikolun qulağına nə isə pıçıldayıblar. Əvvəlcə Paşinyanın özbaşınalıq etməsinə göz yumsalar da sonradan onu bir az cilovlamaq qərarına gəldilər.

Ermənistan hakimiyyəti bir neçə dəfə "Freedom House" kimi beynəlxalq hüquq müdafiə təşkilatlarının və jurnalistlərin sərt tənqidi ilə üzləşib. Amma okeanın o tərəfindəki məlum əl Paşinyanı qoruyub. Baş nazirə qarşı təzyiqlər bəyanatdan o tərəfə gedə bilməyib. Əgər bu gün yumşaq bəyanat verilirsə, sabah "kötüyün" daha iri olacağını gözləməyə dəyər. 3 il bundan əvvəl Ermənistanda baş vermiş inqilab artıq öz "balasını" qurban verməyə hazırlaşır. Paşinyan nişangahdadır, Qərin demokratiya torunda açılmış deşikdən düşmək üzrədir. Bəs onu kim əvəz edə bilər? Sorosun növbəti namizəd-maşası kimdir?

***V.VƏLİYEV***

# Otellərdə qiymətlər nə yerdədir?

**Bir çoxlarımız həyatımız boyu müxtəlif otellərdə qalmalı oluruq və bu zaman təbii ki, bizi ilk növbədə otelin rahatlığı və səliqəliyi, həmçinin də qiymətləri də maraqlandırır. Lakin bildiyimiz kimi hər bir otel özünəməxsus kriteriyaya və qiymətlərə malikdir. SİA olaraq Bakı şəhərində yerləşən otelləri araşdırdıq.**

İlk öncə "JW Marriott Absheron Baku" otelinə yaxınlaşdıq. Otelin PR meneceri Diana Skvortsova bildirib ki, "JW Marrior Absheron Baku" korporativ biznes otel olduğu üçün bayrama görə ailələr gəlmir: "Yalnız fərqli şirkətlərdən iş üçün və yaxud da hansısa bir tədbirə görə qonaqlar gəlir. Ona görə də bayramlarda, normal günlərdə otelimiz 100% dolu olmur. Qiymətlərlə bağlı saytımızda da ətraflı şəkildə təqdim etmişik. Əlbəttə ki, Yeni il bayramı ilə bağlı təkliflərimiz də mövcuddur".

Qeyd edək ki, "JW Marriott Absheron Baku"da bir gecəlik qiymət 338 azn-dən başlayır. Ən bahalı otaq isə 1642 AZN-dir.

Daha sonra "Four Seasons Hotel Baku"ya yaxınlaşdıq. "Four Seasons Hotel Baku"nun PR meneceri Nigar Məhərrəmovanın sözlərinə görə Yeni il bayramı ilə bağlı təkliflərimiz çoxdur: "Yeni il ərəfəsində oteldə bir nəfərlik şam yeməyi 85 azn, Yeni il gecəsi isə bir nəfər üçün şam yeməyi 190 azn-dən başlayır".

Qeyd edək ki, "Four Seasons Hotel Baku"da bir gecəlik qonaqlama 832 AZN-dən başlayaraq 3145 AZN-dək davam edir. Daha sonra isə "Hilton Baku"ya yaxınlaşdıq: Bakının tam mərkəzində, Heydər Əliyev Beynəlxalq Hava Limanından 30 dəqiqəlik məsafədə yerləşən "Hilton Baku"da qiymətlər 386 AZN-dən başlayır, 991 AZN-dək davam edir. "Executive" otaq sifariş edərək, 17-ci mərtəbədə yerləşən Executive Lounge-dan istifadə edə bilərsiniz. Həmçinin, 18 konfrans və iclas otaqları, geniş banket zalı və tam təchiz edilmiş Biznes Mərkəzi də xidmətinizdədir. Daha sonra isə "Safran" otelə yaxınlaşdıq.

"Safran" otelin meneceri İbrahim İbrahimli bildirdi ki, oteldə qiymətlər səhər yeməyi 40 AZN-dən başlayır və 50 AZN-dək davam edir:

"Pandemiya dövründə müştərilər azalıb. Demək olar ki, otaq rezerv edən yoxdur. Yeni il bayramı ilə bağlı heç bir rezervasiya olmadığı üçün oteldə vəziyyət çox acınacaqlıdır. Ona görə də Yeni il bayramı ilə bağlı heç bir kampaniyamız yoxdur".

Gənclik ərazisində yerləşən "Raymont hotel"ə yaxınlaşaraq orada işləyən inzibatçı Davud Ağalarovun da fikirlərini öyrənməyə çalışdıq. Onun sözlərinə görə, oteldə 26 otaq var: "Müştəri səviyyəsi normaldır. Əsasən turistlər gəlir. Oteldəki otaqların qiyməti 40 AZN-dən başlayır, 100 AZN-dək davam edir. Yeni il bayramı ilə bağlı rezervasiya edən yoxdur. Ona görə də hər hansı bir şou proqram hazırlamamışıq".

Mövzu ilə bağlı iqtisadçı Asif İbrahimovun fikirlərini öyrəndik: "İqtisadiyyatda tələb təklifi formalaşdırır deyə bir qanun var. Yeni il ərəfəsində xüsusi bayram tədbirlərində şou proqramları təşkil olunur. Yeni ili Azərbaycanda qeyd etmək istəyən turistlər xaricdən Azərbaycana gələcəklər. Ümumiyyətlə bayram ərəfələrində otellərdə yer məhdudluğunu müşahidə edirik. İnsanlar artıq ay yarım, iki ay öncədən otellərdə otaqları bron edirlər".

Asif İbrahimov fikirlərinə davam edərək həmçinin qeyd edib ki, daha çox ərəb ölkələrindən gələn turistlər çox olur: "Təbii ki, qiymətlərdə hər il olduğu kimi bu ildə bayram ərəfəsində qiymətlərdə artım müşahidə olunacaq. Bu qiymət artımının səbəbi otellərə tələbin artması ilə əlaqədardır. Bunun Azərbaycan iqtisadiyyatına təbii ki, müsbət təsiri var. Eyni zamanda Azərbaycanın dövlət büdcəsinə daha çox vəsaitin daxil olmasına gətirib çıxardır".

***Arzu Qurbanzadə***









# Eyni! əzmkarlıqla ölkə maraqlarının keşiyində



Dünyanın nəzər nöqtəsində olan Azərbaycanın reallıqları Prezident İlham Əliyevin müdrik siyasətindən qaynaqlanır. 44 günlük Vətən müharibəsi bir daha dünyanı Azərbaycanın gücü, reallıqları ilə təəccübləndirdi. Dünyanın heç bir nöqtəsində 44 günlük zaman məsafəsində hansısa müharibəni qalibiyyətlə başa vurmaq görünməmiş hal idi. Bunu tarixə Azərbaycan yazdı. 44 gün və qalib, müzəffər Azərbaycan xalqı. Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktikanın döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatı XXI əsrin müharibəsi olaraq dünya tarixində yer aldı. Bu dünya tarixində görünməmiş Vətən müharibəsi kimi qiymətləndirildi. Qısa bir məsafədə Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək, 30 ilə yaxın zamanda işğal altında qalmış torpaqlarını erməni təcavüzkarlarından azad etdi.

Müharibədən sonrakı dövrdə Azərbaycan yeni reallıqlar yaradıb. Bu reallıqlar bir daha dünyaya mesajdır. 44 günlük Vətən müharibəsindən sonra qısa bir zamanda, sürətli işlərin həmin ərazilərdə aparılması əlbəttə ki, Azərbaycan iqtisadi gücünə, dinamik inkişafına söykənir. Pandemiya dövründə yaşayan və 44 günlük müharibə aparmış Azərbaycanın bu gücü dövlət başçısının uzaqgörənliyinə, müdrik siyasətinə əsaslanır. Bütün sahələrdə dayanıqlı inkişafın əldə olunması üçün məqsədyönlü və ardıcıl işlər görülür. Bu inkişaf bütün bölgələrimizin simasında öz əksini tapır. Azərbaycanın rayonları, şəhər, kənd və qəsəbələri öz abadlığı, gözəlliyi və müasir görkəmi ilə fərqlənir. Bunlarla yanaşı, insanların sosial durumu - həyat şəraiti, mütəmadi olaraq, yaxşılaşdırılır. Qazanılan nailiyyətlər xalqımızı daha böyük qələbələrə və zəfərlərə ruhlandırır. İctimai, siyasi, iqtisadi və hüquqi islahatlar həm ayrı-ayrı sahələrin davamlı inkişafını təmin edir, həm də Azərbaycanın qüdrətli dövlət kimi tərəqqisini şərtləndirir. Bu gün paralel olaraq Azərbaycanın bütün bölgələrində, eləcə də işğaldan azad olunan ərazilərdə görülən işlər - yeni infrastrukturun yaradılması, yeni yolların çəkilməsi, körpülərin salınması və s. ölkəmizin reallıqlarına əsaslanır. Cənab Prezidentin mütəmadi olaraq işğaldan azad olunan ərazilərə səfərləri və bu məkanlarda görülən işlərlə tanışlığı, eləcə də bir sıra obyektlərin təməlini qoyması bu ərazilərin qısa zamanda cənnətə çevriləcəyindən xəbər verir.

## "İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ ƏLDƏ EDİLMİŞ ZƏFƏRDƏN SONRA BİZİM GÜCÜMÜZ, NÜFUZUMUZ, TƏSİR DAİRƏMİZ DAHA DA GENİŞLƏNDİ"

Bütün həyatını xalqa bağlayan, Azərbaycanın inkişafı naminə gecəli-gündüzlü çalışan dövlət başçısı İlham Əliyevin hər il doğum gününü xalqın arasında keçirməsi artıq ənənə halını almışdır. "Azərbaycan xalqı yaxşı bilir ki, Mən ad günlərimi qeyd etmirəm. Adətən ad günlərimə təsadüf edən günlərdə hansısa sosial obyektlərin açılışında iştirak edirdim, məcburi köçkünlərlə, şəhid ailələri ilə görüşürdüm. Şəhid ailələri üçün inşa edilmiş yeni evlərin açılışlarında, yeni salınmış köçkün qəsəbələrində bu kateqoriyadan olan insanlarla görüşürdüm". Bu fikirləri dövlətimizin başçısı İlham Əliyev Şuşanın məşhur Cıdır düzündə çıxışı zamanı bildirib. Qeyd edib ki, 50 illiyimi də məcburi köçkünlərlə bərabər qeyd etmişdim. 50 illiyimi Qarabağda - Ağcabədidə keçirdim, 60 illiyimi isə Qarabağda - bu dəfə Şuşada keçirirəm: "Bu iki tarix arasında bir canlı bağlantı var. Ölkə ərazisində və bölgədə gedən proseslərə biz, sadəcə olaraq, seyrçi deyildik. Biz bu prosesləri böyük dərəcədə idarə edirdik. Biz bölgə gündəliyini formalaşdırırdıq. İkinci Qarabağ müharibəsində əldə edilmiş Zəfərdən sonra bizim gücümüz, nüfuzumuz, təsir dairəmiz daha da genişləndi".

## "MƏN HƏMİŞƏ DEYİRDİM Kİ, GÜN GƏLƏCƏK, İŞĞAL ALTINDAKI TORPAQLARIMIZ AZAD EDİLƏCƏK, BİZ BU TORPAQLARA QAYIDACAĞIQ VƏ QAYITMIŞIQ"

Azərbaycan 30 ilə yaxın bir zamanda işğal altında olan ərazilərini azad etdi. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan tarixi torpaqları Ermənistanın işğalı altında idi. Bu işğal və etnik təmizləmə siyasəti nəticəsində torpaqlarımızın 20 faizi işğal edilmiş və 1 milyondan çox azərbaycanlı məcburi köçkün, qaçqın vəziyyətində yaşayırdı. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. Bu qətnamələrdə göstərilirdi ki, erməni silahlı qüvvələri işğal edilmiş torpaqlardan dərhal və qeyd-şərtsiz çıxarılmalıdır. Əfsuslar olsun ki, Ermənistan bu qətnamələrə məhəl qoymadı və öz işğalçı siyasətini davam etdirdi. Bu gün artıq Azərbaycan müharibə yolu ilə öz torpaqlarını işğaldan azad edib və tarixi ədalət bərpa olunub. "Mən həmişə deyirdim ki, gün gələcək, işğal altındakı torpaqlarımız azad ediləcək, biz bu torpaqlara qayıdacağıq və qayıtmışıq. Azərbaycan xalqı bütün bu illər ərzində Mənə inanırdı", - deyən Prezident bildirib ki, baxmayaraq ki, həm ovaxtkı məcburi köçkünlər, həm ölkə ictimaiyyəti ildən-ilə davam edən mənasız danışıqlara nəzər salaraq görürdü ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli çətinləşir: "Amma buna baxmayaraq, doğma xalqım mənim sözlərimə inanırdı. Mən deyirdim ki, gün gələcək Azərbaycan bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada dalğalanacaq və bu müqəddəs günü biz şəhidlərimizin qanı-canı bahasına yaşadıq".

## "HADRUTDA - XOCAVƏND RAYONUNDA ORDU QURUCULUĞUNDA APARILAN İŞLƏRİN YENİ MƏRHƏLƏSİNƏ QƏDƏM QOYDUQ"

Artıq bu gün işğaldan azad olunan ərazilərdə abadlıq-quruculuq işlərinin miqyası genişlənib. Bu gün azad olan ərazilərdə nəhəng işlər görülür. Cənab Prezidentin Hadruta səfəri çərçivəsində Hadrutda Müzəffər Azərbaycan Ordusunun Ali Baş Komandanı kimi yeni silahlı birləşmə olan Komando Briqadasının hərbi hissəsinin açılışında iştirak edib. Cənab Prezident bildirib ki, bu gün keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkib hissəsi olan Hadrutda - Xocavənd rayonunda ordu quruculuğunda aparılan işlərin yeni mərhələsinə qədəm qoyduq. Vurğulayaq ki, artıq Prezidentimizin işğaldan azad olunan ərazilərə səfərləri tarixi hadisəyə çevrilir. "Bu, mənim Şuşaya bu il yeddinci səfərimdir" - deyən Cənab Prezident diqqətə çatdırıb ki, mən burada - Şuşada müxtəlif tədbirlərin açılışlarında iştirak etmişdim: "O tədbirlər ki, Şuşanın Azərbaycan xalqına, Azərbaycan mədəniyyətinə məxsus olmasını bir daha təsdiqləyir". Bu gün Şuşada artıq abadlıq-quruculuq işləri genişlənib. Artıq Şuşadan dünyaya bir sıra mesajlar verilib. Bu il may ayında Cıdır düzündə "Xarıbülbül" festivalı keçirildi və Azərbaycan muğamı dünyaya səs saldı. Uzun fasilədən sonra bu il ilk dəfə olaraq "Xarıbülbül" musiqi festivalı keçirildi. Bu festival şəhidlərimizin əziz xatirəsinə həsr olundu. "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan Şuşadan xalq ruhunu əks etdirən musiqi sədaları eşidildi. "Şuşada "Xarıbülbül" festivalında Ulu Öndərin Şuşa haqqında tarixi sözlərinin bir hissəsi videoformatda təqdim edildi, deyən Cənab Prezident hər birimizin o anları xatırladığını bildirib: "Necə böyük inamla, necə böyük sevgi ilə Heydər Əliyev deyirdi ki, biz Şuşaya qayıdacağıq, inanın ki, qayıdacağıq. O, özü inanırdı, bizi də inandırırdı. Bizə də Onun inamı, xalqın iradəsi əlavə güc verdi və bu gün biz buradayıq, bu müqəddəs torpaqdayıq. Qeyd etdiyim kimi, bundan sonra bu torpaqlarda Azərbaycan xalqı əbədi yaşayacaq, bundan sonra Qarabağda Azərbaycan muğamı əbədi səslənəcəkdir".

## "QARABAĞ BİZİMDİR! QARABAĞ AZƏRBAYCANDIR!"

Əlbəttə ki, Azərbaycan musiqisi Şuşanın dağlarından dünyaya yayılır. Bildiyimiz kimi, Şuşada Vaqif Poeziya Günləri keçirildi. Cıdır düzündə muğam, Vaqifin məqbərəsi önündə şeirlər ifa olundu. Əlbəttə ki, Şuşada reallaşan layihələr tezliklə dünyanı heyrətləndirəcək. Azərbaycan Prezidenti İlham Əliyevin "Şuşa şəhərində istilik təchizatı sisteminin layihələndirilməsi, tikintisi və quraşdırılması ilə bağlı tədbirlər haqqında", "Şuşa şəhərində yeni ümumtəhsil məktəbinin tikintisi ilə bağlı tədbirlər haqqında", "Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsi haqqında" sərəncamları artıq Şuşada yeni bir həyatın başlanması deməkdir. Dövlət başçısının Zəfər Günü ərəfəsində Şuşada Daşaltı məscidinin təməlini qoyması dünyaya növbəti mesaj oldu. Noyabrın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyevanın Şuşa Radio-Televiziya Yayım Stansiyasının təməlini qoymaları daha bir layihənin reallaşacağını özündə ehtiva edir. Artıq bu gün ermənilərin yaratmaq istədikləri mif dağıdılıb. "Sizi əmin etmək istəyirəm ki, bundan sonra da eyni əzmkarlıqla, eyni qətiyyətlə ölkə maraqlarının keşiyində duracağam, sizin dəstəyinizlə biz yeni böyük uğurlara imza atacağıq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"- deyə Azərbaycan Prezidenti bildirib.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Rusiyalı politoloq Paşinyanın bəyanatından hansı nəticələri çıxardı

**Ermənistanın baş naziri Nikol Paşinyanın məlum bəyanatının postmünaqişə dövründə Bakı ilə İrəvan arasındakı danışıqlar raunduna hesablandığını düşünmək olar və qalır Ermənistanın 10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli bəyanatı nə zaman və hansı müddətdə praktiki şəkildə rezilə etməsinə ki, burada da müəyyən mənada bəzi ehtimallar yaranır: ümumiyyətlə, erməni baş nazirinin çox vaxt sözləri ilə fəaliyyəti üst-üstə düşmür və sonrakı proseslərdən hansı nəticələri gözləmək olar?**



SİA xəbər verir ki, Rusiyanın Siyasi araşdırmalar institutunun direktor müavini, siyasi ekspert Darya Qrevtsova rusdilli caliber analitik informasiya mərkəzinə mövzu ilə bağlı deyib ki, Paşinyan yaranmış çətin şəraitdə hər zaman Ermənistanın iqtisadi yüksəlişinin tərəfdarı olub və o, anlayıb ki, situasiyanı dəyişmək vacib amilə çevrilib.

**Darya Qrevtsova: "Mümkündür ki, Paşinyan daxili auditoriyanın reaksiyasını müşahidə etmək istəyir, anlamağa çalışır ki, o, bundan sonra daha nə qədər irəliyə gedə bilər"**

### "Yaranmış vəziyyətdə Ermənistanın yeni strategiya qurmaqdan başqa əlacı qalmır"

"Bu səbəbdən Paşinyanın bugünlərdə səsləndirdiyi bəyanatını kifayət qədər pozitiv qiymətləndirmək olar", deyən Rusiya siyasi ekspertinin sözlərinə görə, Paşinyan nəqliyyat kommunikasiyalarının blokadadan çıxarılması, Azərbaycanla və Türkiyə ilə münasibətlərin qurulması sayəsində situasiyanı dəyişə biləcəyini anlayır: "Əgər əvvəl Ermənistan bu mövzuda danışmağı qəbulolunmaz hesab edirdisə, İkinci Qarabağ müharibəsində aldığı məğlubiyyətindən sonra onun Rusiyaya qarşı şantajları nəticə verməyəcək və əsasən Fransa olmaqla Qərb tərəfindən hər hansı dəstək, preferens əldə edə bilməyəcək, hansı ki, bu ölkənin prezidentliyinə olan iki namizədi Ermənistana səfər etdilər, hətta onlardan biri də Qarabağda oldu. Paşinyan görür ki, Rusiya da Ermənistanın Azərbaycana qarşı konkret siyasət yürütməsinə dəstək göstərmək marağında deyil. Ona görə də yaranmış vəziyyətdə Ermənistanın yeni strategiya qurmaqdan başqa əlacı qalmır. Üstəgəl, mümkündür ki, Paşinyan daxili auditoriyanın reaksiyasını müşahidə etmək istəyir, anlamağa çalışır ki, o bundan sonra daha nə qədər irəliyə gedə bilər. Əsasən də, ona güclü maliyyə siyasəti və iqtisadi artım lazımdır, bu isə kommunikasiyalar blokadadan çıxarılmasa mümkün görünmür".

### "Türkiyə üçün yalnız kiçik Ermənistanla deyil, bütün erməni diasporu ilə əməkdaşlıq vacibdir"

Qrevtsova Bakı-Ankara-İrəvan üçbucağının əməkdaşlıq perspektivləri barədə də maraqlı nüanslara toxunaraq bildirib ki, belə bir əməkdaşlıq gələcəyin mənzərəsində görünməkdədir.

"Rusiya müvafiq əməkdaşlıq formatını dəstəkləyir, bundan əlavə "3+3" formatı da Ermənistan və Türkiyənin münasibətləri qurmağa meyilli olma şərtləri daxilində fəaliyyət göstərə bilər. Nəyə görə bu daha əvvəl baş vermirdi? Ona görə ki, Ermənistan Türkiyənin qondarma soyqırımını tanıması yönündə inadkarlıq göstərirdi, 2020-ci ildə baş vermiş İkinci Qarabağ müharibəsindən sonra isə onun ritorikası daha da artdı. Bu baxımdan, Türkiyə də Ermənistanla əməkdaşlığa hazırdır. Lakin Türkiyə üçün yalnız kiçik Ermənistanla deyil, bütün erməni diasporu ilə əməkdaşlıq vacibdir. Və çox vacib məsələdir ki, Azərbaycan Qarabağdakı torpaqlarını geri qaytardıqdan sonra bu əməkdaşlığa qarşı çıxmır" Qrevtsova bildirib.

### "Ermənistan Rusiya ilə Türkiyə arasında münaqişənin yaranmasına da ümid edir... Bakı Xankəndinin azad olunması üçün öz ordusunu göndərə bilər"

Rusiyalı politoloq müsbət siqnalların olmasına baxmayaraq, Azərbaycanla Ermənistan arasında sərhədlərin demarkasiya və delimitasiyasının həll olunmaması ilə bağlı problemlərin mövcudluğu səbəbindən silahlı qarşıdurmaların baş verəcəyini də istisna etməyib. Qrevtsovaya görə bu, həlledici və ən mübahisəli məsələdir ki, burada kəskin ziddiyyətlər yaşana bilər: "Çətin ki, Paşinyan revanşçı qüvvələri və qanunsuz silahlı formalaşmaları nəzarəti altına ala bilib və bu baxımdan, təxribatlar baş verə bilər. Onu da hesab edirəm ki, Ermənistan Rusiya ilə Türkiyə arasında münaqişənin yaranmasına da ümid edir", rusiyalı politoloq proqnozlarını bölüşərkən deyib.

Onun sözlərinə görə, Azərbaycan rusiyalı sülhməramlılarla bağlanan müqaviləsini böyük ehtimalla uzatmayacaq və ən azı beş il sonra sülhməramlılar öz postlarını tərk edəcəklər: "Və Ermənistan Qarabağı Azərbaycana tam şəkildə qaytarmaq istəmirsə, Xankəndində Azərbaycan bayraqlarının, azərbaycanlı polislərin fəaliyyətini istəmirsə bu zaman Bakı Xankəndinin azad olunması üçün öz ordusunu göndərə bilər. Düşünürəm ki, Ermənistanla Azərbaycan arasında toqquşmaların səbəbləri çox ola bilər, bu baxımdan, onlar gələcəkdə qaçılmaz olacaq".

*Rövşən RƏSULOV*




## "Bu gün bir daha həmrəy olaraq əlimizdən gələni etməliyik"

Bildiyimiz kimi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il dekabrın 16-da Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Azərbaycan Respublikasının Ali Sovetinə müraciət edib. Dekabrın 25-də Ali Sovetin Milli Şurası müraciəti nəzərə alaraq, dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan olunması barədə qanun qəbul edib və artıq bütün azərbaycanlılar rəsmən bu günü bayram kimi qeyd edir. SİA mövzu ilə bağlı Azərbaycan Naminə Alyans Partiyasının sədri Abutalıb Səmədovun fikirlərini öyrənib.

Abutalıb Səmədov bildirib ki, 90-cı illərdən başlayaraq Naxçıvan müstəqillik uğrunda mübarizənin önündə gedirdi və ən mühüm qərarlar da Naxçıvanda qəbul olunurdu: "Sonradan Azərbaycan Respublikasının parlamenti bu qərarları qəbul etmək məcburiyyətində qaldı. Bildiyimiz kimi 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi təsis edilməsi ilə bağlı təşəbbüs də ilk dəfə bu parlamentdə qəbul edildi. Bu həmrəyliyi, birliyi təmin etməsək, bizim ciddi hədəflərə çatmağımız, ciddi hədəflərə nail olmağımız həddindən artıq çətindir. Etiraf etməliyik ki, bu istiqamətdə Azərbaycan diasporu, xaricdə yaşayan azərbaycanlılar əvvəlki dövrlərə nisbətən kifayət qədər işlər görüb. Bu gün biz bir daha həmrəy və birlik olaraq xalqımız üçün, dövlətimiz üçün əlimizdən gələni etməliyik".

*Arzu Qurbanzadə*



# "Vəziyyətimiz acınacaqlıdır, cənablar"

**"...Bəli, bu gün bölgə qaynayan qazana bənzəyir və mövcud vəziyyətdən qaynaqlanan təhlükələri qiymətləndirməmək olmaz".**

Qeyd edək ki, bunu erməni politoloq Qrant Melik-Şahnazaryan Ermənistan ətrafında yaşananlara münasibət bildirərkən deyib. Politoloqun fikrincə, hazırda Ermənistanda milli maraqların qorunmasını qarşısına məqsəd qoyan hökumət yoxdur və bu təhlükələr hər gün daha çox hiss olunmaqdadır.

Bəs, nə etməli? Melik-Şahnazaryan bunun da cavabını verir: ayağa qalxmalı. Yəni onun dediyindən belə anlaşılır ki, erməni xalqı bu təhlükəni aradan qaldırmaq üçün "yetərincə" addımlar atmayınca, heç kim onlara kömək etməyəcək.

Maraqlıdır ki, 2020-ci ildən etibarən Türkiyənin Cənubi Qafqazda hərbi-siyasi proseslərin ən mühüm oyunçularından birinə çevrildiyini bildirən erməni politoloq bu il Ankaranın öz mövqelərini artıq möhkəmləndirdiyini, gələn, 2022-ci ildə isə geosiyasi məsələlərin, o cümlədən regional təhlükəsizliklə bağlı məsələlərin həllində Rusiyanın dominant mövqelərinə meydan oxuyacağını bildirir. Deməli, bu gün yıxılan Ermənistanın, sabah ayaqlar altında qala biləcəyə labüddür.

Bəs, belə olan halda nə etməli?

Qeyd edək ki, burada əsas məsələlərin həllində erməni müxalifətinin öndə olmasını istəyən Qrant Melik-Şahnazaryan təəssüflə də olsa, bu arzusunun reallaşacağına inanmadığını bildirir. Niyə, çünki bu gün ölkədə xalqın erməni müxalifətinə heç bir inamı olmadığını etiraf etmək məcburiyyətində qalır.

Maraqlıdır ki, o dediklərinin sübutu kimi nümunələr də gösrərir. İlk olaraq bu günkü hakimiyyətin Ankara ilə diplomatik əlaqələr quran sənədləri imzalayacağına şübhəsinin olmadığını bildirən erməni politoloq, başqa bir əsas kimi son ölkədə keçirilən son seçkiləri göstərir.

Belə ki, Ermənistandakı son yerli özünüidarə orqanlarına keçirilən seçkilərdə, məlum olduğu kimi, sadə ermənilər artıq müxalif qüvvələrinə deyil, öz həmvətənlərinə səs verdilər.

Təbii ki, bu da ölkədəki sadə insanların erməni müxalifətinə olan inamsızlığı ilə bağlıdır. Əslində, onlar bəlkə haradasa haqlıdırlar da... Axı, dünənə qədər sadə ermənilərə qənim kəsilib, onları soyub talayan Robert Koçaryan və ya Serjik Sarkisyan kimilədən nə müxalifət?

Məhz elə buna görə də, bəzi erməni səlahiyyətlilərinin sabiq erməni müşavir Jirayr Liparityandan sonra Ermənistan-Türkiyə danışıqlarına qatılacaq Ruben Rubinyanın növbəti "türk casusu" kimi təqdim etməyə çalışmaları sadə ermənilər üçün elə də inandırıcı görünmür.

"...Vəziyyətimiz acınacaqlıdır, cənablar". Bunu isə özünü erməni müxalifətinin nümayəndəsi kimi rəqdim edən Aşot Qulyan adlı biri həmvətənlərinə xitabən etiraf edib.

*Ağasəf Babayev*




# Xalq Əli Kərimliyə sorğu edir: 16 ildir heç bir yerdə işləmədən necə dəbdəbəli həyat yaşayırsan?

Müasir dövrdə informasiya və kommunikasiya vasitələri o qədər inkişaf edib ki, cəmiyyəti yalanla aldatmaq mümkün deyil. Hazırda hər bir Azərbaycan vətəndaşının imkanı da var ki, internetdə, "youtube"da axtarış verib lazım olan informasiyanı, videonu tapsın və həqiqətləri bilsin. Lakin çox təəssüflər olsun, bu gün hələ də elə adamlar tapılır ki, insanları, cəmiyyəti yalanları ilə aldada biləcəyini fikirləşir. Bu səbəbdən də total nəzarəti altında olan bir neçə "facebook" səhifəsi, "youtube" kanalları yaradır, həmin platformalar da onların yalanlarını yayımlayırlar. Yayımlanan yalanları isə trollar və botlar çoxaldır, saxta ictimai rəy və adekvat reaksiya görüntüsü yaradırlar.

Elə bu günlərdə bloqqer Əli Kərimlinin əmək haqlarının, təqaüdlərin artırılması ilə bağlı Prezident sərəncamlarına qara yaxmağa çalışmasını bu prizmada nümunə olaraq göstərmək olar.

O, "facebook" səhifəsində yazıb ki, "aylıq artımlar bir həftəlik bahalaşmanı kompensasiya edir? Bəs işləyənlərin maaşları? Bəs milyonlarla işləməyənlər necə dolansın bu bahalaşma şəraitində? Bəs 2.6 milyon uşaq hansı pulla böyüdülsün?". Bu dəfə də trollar, botlar statusu bəyənməyə, aqressiv rəylər yazmağa, saxta rəy formalaşdırmağa çalışıblar. Lakin Əli Kərimli və onun dəstəsi bir dəfə də olsun "16 ildir heç bir yerdə işləmədən necə dolanırsan?" haqlı sualına nəinki cavab vermədi, hətta insanları belə təhqir etdilər. Əslində bu, yerində verilmiş sualdır. Çünki Əli Kərimlinin övladlarının hər birinin xaricdə təhsil almaları və ABŞ, Britaniya kimi ölkələrdə yaşamaları, özünün bir deyil, bir neçə cangüdən saxlaması, "Mazda" markalı xarici avtomobilə və müxtəlif ərazilərdə mülklərə sahib olması kimi məlumatlar insanlarda haqlı maraq və suallar yaratmış olur.

Hər gün şəffaflıq, aşkarlıq, haqq-ədalət kimi mövzularda moizələr oxuyan Əli Kərimlinin bu haqda heç bir açıqlama verməməsi, yaxud malalama ifadələri şübhəli məqamların olmasından xəbər verir. Hər kəs sual edir ki, oğlu Türkel Kərimlini Britaniyada, Bristol Universitetində hansı pullarla oxutdurub. Həyat yoldaşına dövlət tərəfindən verilmiş 2 otaqlı mənzilin pulu iləmi? Heç şübhəsiz ki, Əli Kərimli oğlu Türkel Kərimlinin təhsil, yaşayış və s. xərclərini heç də ikiotaqlı mənzilin satılması ilə qarşılamayıb. Əgər buna da isbat lazımdırsa, buyurun, adi hesablama aparaq.

Başlayaq Britaniyanın Bristol Universitetində təhsil almaq üçün hazırlıq mərhələsindən. Bizə ilk növbədə 100 avro əlaqələndirici təşkilata ödəmək lazımdır. Daha 110 avro Britaniyaya viza almaq üçün ödənilir. Universitetdə qeydiyyat xərci 50 funt sterlinq. Orijinal dəvətnamənin çatdırılması 80 funt sterlinq. Hava limanında qarşılanmaya və universitetə çatdırılmaya 50 funtsterlinq. Dərs vəsaitlərinə və bank xərclərinə 85 funt sterlinq. 3 aylıq tibbi sığorta 90 funt sterlinq. Bakıdan Londona təyyarə biletinə 1 nəfər üçün 2000 manat. Beləliklə, Əli Kərimli oğlu Türkeli Bristol Universitetinə oxumağa göndərmək üçün təxminən 5 min manat xərc çəkməli olub.

İndi isə keçək Bristiol Universitetindəki xərclərə. Öncə onu qeyd edək ki, Bristol Universitetində humanitar ixtisasların illik təhsil haqqı 15000 funt sterlinqdən başlayır. Lakin tibb və hüquq ixtisasları çox bahadır. İllik təhsil haqqı 35000 funt sterlinqdən başlayır. Beləliklə, Əli Kərimli Türkelin bu universitetdə hüquq ixtisası üzrə təhsil alması üçün 4 ilə 140 000 funtsterlinq xərcləməli idi. Əgər Türkelin yalnız təhsil haqqını manata konvertasiya etsək, təxminən 300 min manat xərc ortaya çıxır. Hələ 4 il ərzində Türkelin Bristolda qalmaq, yaşamaq xərclərini, eləcə də cəbhəçilərin də etirafına görə, Əli Kərimlinin həyat yoldaşının oğlunun təhsil dövrü ərzində ayda iki dəfə Londona getməsinin də xərclərini topladıqda təxminən 500 min manatlıq bir xərc əmələ gəlir. Beləliklə, ortaya daha bir sual çıxır ki, Bakı şəhərində 2 otaqlı mənzilin qiyməti nə qədərdir ki, Əli Kərimli oğlunun xərclərini qarşılaya bildi? Lap fərz edək ki, təzyiqlə, şantajla evi kiməsə 100 min manata satdı. Bəs, qalan 400 min manat?

Biz hələ Türkelin Britaniyadakı eyş-işrət xərclərindən, onun hərbi xidmətdən yayındırılıb ABŞ-a qaçırılmasından, orada ili 50 min dollar olan magistr təhsilinə cəlb edilməsindən, qızı Selcanın Londonda oxumasından, 3-cü uşağının Londonda dünyaya gəlməsindən, orada kollecdə təhsilə cəlb olunmasından danışmırıq. Əgər bu xərcləri də hesablamağa başlasaq, o zaman rəqəmi milyonlarla ifadə etməli olacağıq.

**Belə bir vəziyyətdə Əli Kərimlinin şəffaflıq, aşkarlıq, haqq-ədalət kimi fikirləri nə qədər səmimi ola bilər?**

Ola bilər kimsə düşünər ki, Əli Kərimli partiya sədridir, üzvlük haqlarından qazanc əldə edir. Lakin Əli Kərimli rəsmi olaraq bu halı da danır və Mərkəzi Seçki Komissiyasına verilməli olan hesabatlarda AXCP-nin qarşısında sıfırdan başqa heç bir rəqəm görmək mümkün deyil. Bu məsələ də özlüyündə Əli Kərimlinin cəbhəçilərdən üzvlük haqqı yığsa da, bu məsələnin heç bir şəffaflıq şəraitində baş vermədiyini sübut etmiş olur. Bununla yanaşı, faktlar var ki, özünə müxalifət deyən Əli Kərimli AXCP vəsiqəsini 3 min manata satırmış. Hətta, Avropaya mühacir kimi getmək istəyənlərdən onunla çəkdirdiyi hər şəkilə görə də haqq alırmış. Ümumilikdə isə AXCP tərəfindən Avropaya mühacir kimi yola salınan şəxslərdən 10 min manat qopardırmış. Eyni zamanda, vaxt var idi ki, nəzarətində olan və Qənimət Zahidin baş redaktorluq etdiyi "Azadlıq" qəzetinə KİVDF tərəfindən 10 minlərlə manat yardım verilib. Vaxtilə "Azadlıq" qəzetində çalışmış jurnalistlər etiraf edirdilər ki, vaxt var idi qəzetin müxbiri uşağına ayaqqabı ala bilmirdi, amma Əli Kərimli qəzetin əməkdaşları üçün ayrılan vəsaiti son qəpiyinə qədər mənimsəyirdi. Hətta şahidlərin sözlərinə görə "Azadlıq" qəzetinin redaksiyasında pul üstündə "stul davaları" da olurdu...

Bir sözlə, sözləri ilə əməli ziddiyyət təşkil edən Əli Kərimli özünü siyasətçi hesab etdiyi, hər cəhddə xalq, millət, ölkə düşünən olduğunu ictimai şüura sıramağa çalışdığı üçün hesabatlı olmalı, son 16 il ərzində heç bir yerdə işləmədiyi halda övladlarının xarici ölkələrdəki təhsili, yaşayışı haqqında faktlardan ibarət hesabat verməlidir. Necə deyərlər, sözdə şəffaflıqdan danışmırsan? Buyur, əməlinin də şəffaflığını sübut elə...

***Ramil Vəlibəyov,***
***YAP Nizami rayon təşkilatının sədri***



Elçin Bayramlı

# Şok geyindirim kampaniyası

**Son zamanlar ticarət və iaşə obyektlərində müxtəlif faizli güzəşti nəzərdə tutan endirim kampaniyalarının keçirildiyi haqda elanların sayı kəskin şəkildə artıb. Mağazaların vitrinlərində, iri reklam şitlərində satış qiymətlərinin xeyli dərəcədə aşağı salınması barədə məlumat verilir. Bu proses bəzi mağazalarda ilboyu davam edir.**

Aydındır ki, bu kampaniyanın reallaşdırılmasında məqsəd yalnız satılacaq mal və məhsullara tələbatı artırmaq üçün onların reklamının təşkili, satılmayan malları baha qiymətə alıcılara sırımaqdir.

Bundan başqa, istifadəyə yararsız və istismar müddəti bitmiş məhsulların satış dövriyyəsinə buraxılması üçün də bəzi ticarət obyektlərinin məlum "endirim güzəştləri"ndən istifadə etdiyi heç kimə sirr deyil.

Bütün dünyadan fərqli olaraq bizdə insanlara, əsasən, geyiminə görə münasibət göstərirlər. Bu səbəbdən də Azərbaycan əhalisi üçün zəruri mallar kateqoriyasında geyim, hətta qidadan da öndə yer alır.

Ən ucuz və keyfiyyətsiz ərzaqla qidalanan, amma bahalı və dəbdə olan geyimə üstünlük verən insanlar bizdə kifayət qədər çoxdur. Bu isə, ölkədə paltar bazarının çiçəklənməsinə böyük imkanlar yaradıb. Belə çiçəklənməni əlbəttə, yaxşı hal hesab etmək olardı, bir şərtlə ki, bu, paltar bazarının keyfiyyətsiz məhsullarla doldurulması və istehlakçıların aldadılması ilə müşayiət olunmasın.

Xarici ölkələrdə bir ilin geyim kolleksiyası növbəti ildə satılmır. Çünki mövsümün sonuna doğru geyim kolleksiyalarında endirim kampaniyaları elan olunur və bu malların, demək olar ki, hamısı satılır. Bizdə isə, əksər hallarda satılmamış mallar növbəti ilə saxlanılır və guya yeni dəbə minmiş paltar kimi yenidən satışa çıxarılır.

Bu gün Bakıdakı mağazaların əksəriyyətinin vitrinlərində yazılmış lövhələrdə 30, 50, hətta 70 faizlik endirim elan edilib. Lakin mallara baxanda məlum olur ki, bu endirim yalnız əhəmiyyətsiz, satılmayan, keyfiyyətsiz mallara aiddir. Üstəlik, qiymətlər hər hansı bir ucuzlaşma edildiyini düşünməyə əsas vermirdi.

Belə çıxırdı ki, endirim ediləndək hər hansı bir paltar 100 manata satılırmış. Geyimlərin keyfiyyətindən və tikiliş səviyyəsindən azca anlamaq kifayət edir ki, belə paltarların real dəyərinin maksimum 20 manat olduğunu başa düşəsən. Belədə mağaza, məsələn, 30 manata satmaqdan məmnun olduğu hər hansı bir geyimi, guya əvvəlki qiyməti 100 manat imiş kimi, 70 faizlik endirim adı ilə 30 manata satır.

Üstəlik, "şok endirim" sözünü görüb mağazaya daxil olan alıcıların sayı artır. Gözəl-göyçək satıcı qızlar da (boş yerə xarici görünüşü gözəl olan gənc qızları belə yerlərdə işə cəlb etmirlər ki?) əzilib-büzülərək müştərini şirin dillə ələ alır, malı layiq olmadığı təriflərə qonaq edərək alıcının dükandan əliboş çıxmasına imkan vermirlər.

Hansısa mala baxmaq istəyən alıcıya isə təxminən belə sözlər deyilir- "Siz özünüz müasir, savadlı adama oxşayırsınız. Elə geyiminizdən hiss olunur ki, aristokrat adamsınız (?). Sizcə belə malı bundan aşağı qiymətə almaq olarmı?"

"Qoltuğuna qarpız verilmiş" müştəri isə bir az tərəddüd etsə belə, plastik manekenə oxşayan satıcı xanımın qızıl kimi vaxtını aldığından xəcalət çəkərək həmin malı almağa məcbur olur.

Hazırda "endirim" mağazalarında şıdırğı "geyindirim" prosesi gedir. Necə deyərlər, alan razı, satan razı, nəyə lazımdı qazı?

Bazar olsun!

SİYASİ RAKURS +AKTUAL

# Paşinyanın həqiqəti, Araik-David cütlüyünün hürüşləri

## Vəziyyət nəzarətdən çıxmaq təhlükəsi ilə üzləşərsə, güc yolundan istifadə etməkdən başqa çarə qalmır

Məlum olduğu kimi, Ermənistanın baş naziri dekabrın 24-də onlayn rejimdə mətbuat konfransı zamanı deyib ki, Qarabağın son "statusunun" dəqiqləşdirilməsi Azərbaycan Konstitusiyası əsasında baş verməlidir və bu imkanı onun sələfləri yaradıb. Daha dəqiq desək, Paşinyan deyib ki, Qarabağ münaqişəsi üzrə danışıqlar prosesi əvvəlinci gündən erməni tərəfinin "xeyrinə" getməyib və Qarabağ tənzimlənməsi ilə bağlı ATƏT-in Minsk qrupu həmsədrlərinin hələ 2016-cı ildə irəli sürdükləri təkliflər erməni tərəfi üçün "faciəvi" olub. Yəni belə nəticə hasil etmək mümkündür ki, erməni hökumətnin başçısı beynəlxalq hüququn Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğunu və orada yaşayan ermənilərin də müqəddəratlarının məhz Azərbaycan qanunları əsasında müəyyən olunması gərəkliyini ifadə edib.



### Qarabağdakı separatçı-quldur rejimi özünə "sığışmır" və vəziyyətin gərginləşməsi yönündə fəaliyyətini davam etdirir

Lakin Paşinyanın sözügedən çıxışından sonra Qarabağdakı separatçı rejimin başçısı Araik Arutyunyan bəyan edib ki, "artsax" haqqında qərarları yalnız Qarabağ erməniləri verə bilərlər və nəinki bu ərazilər, eləcə də Azərbaycanın 44 günlük müharibə zamanı işğaldan azad etdiyi ərazilər geri qaytarılmalı, üstəlik, "stepanakertin müstəqilliyi" dünya dövlətləri tərəfindən tanınmalıdır. Beləliklə, hətta Ermənistan hakimiyyətinin zaman-zaman müsbət xarakterli bəyanatlarına rəğmən, Qarabağdakı separatçı-quldur rejimi necə deyərlər, özünə "sığışmır" və vəziyyətin gərginləşməsi yönündə fəaliyyətini davam etdirir. Bu kimi faktlar isə söz yox ki, Bakının qeyd dəftərinə yazılır, bütövlükdə isə artıq bu cür qənaətə gəlmək olar: Vəziyyət nəzarətdən çıxmaq təhlükəsi ilə üzləşərsə, güc yolundan istifadə etməkdən başqa çarə qalmır

Gəlin bir daha bu məsələlər ətrafında yalnız separatçı-quldur rejim rəhbərliyinin deyil, eyni zamanda, digər erməni daşnak ünsürlərinin də ərazi bütövlüyümüzə qarşı səsləndirdikləri açıqlamalarına diqqət yetirək və Xankəndinin antiterror əməliyyatları vasitəsi ilə Bakının tam nəzarətinə götürülməsi zərurətinin vacibliyini araşdıraq.

### Belə fikirlərin onlar üçün nə qədər təhlükə yaradacağının fərqinə varmırlar

"Qlobal siyasi çaxnaşmalar şəraitində Ermənistan öz sərhədlərinin təhlükəsizliyi barədə qayğılanmalıdır". SİA xəbər verir ki, bu fikirləri erməni siyasətçisi, Ermənistanın"Billi Birlik" partiyasının sədri Artaşes Geqamyan deyib. Onun sözlərinə görə, Ermənistan ilk növbədə Rusiya və Belarus ittifaqına qoşulmalıdır və Qarabağın təhlükəsizliyi barədə danışarkən erməni siyasətçisi sərsəmcəsinə bildirib ki, tanınmayan respublikanın, yəni Xankəndinin Rusiya Federasiyasının tərkibinə daxil olması prosesi başladılmalıdır və s.

Bəli, gördüyünüz kimi, 44 günlük ağır məğlubiyyət və rüsvayçı əzilmə faktı məhz Rusiyanın arxasında gizlənərək bənzər tipli bəyanatlar, yaxud "ideyalar" səsləndirirlər və belə fikirlərin onlar üçün nə qədər təhlükə yaradacağının fərqinə varmırlar. Yəni bu, açıq-aşkar erməni axmaqlığıdır və heç bir azərbaycanlı hətta ölkəsi ən çətin vəziyyətə düşərsə belə heç vaxt dövlətinin başqa dövlətlə birləşməsi haqqında düşünə bilməz, ümumiyyətlə, bu absurd düşüncələr yan keçə bilməz! Bu gün azərbaycanlıları ermənilərdən kardinal fərqi də məhz bundadır. Bir daha sübut olunur ki, reallıqda ermənilər üçün suverenlik və müstəqillik faktoru boş qazan danqıltısıdır. Daha doğru vurğulasaq, isterik fahişəlik mövcudluğu - bu kimi ermənilərin tarixi cizgiləridir.

### David Babayan nəyi düzgün proqnozlaşdırıb?

İndi isə gəlin son dövrlərini yaşayan qondarma "artsaxın" saxta "xarici işlər naziri" David Babayanın fikirlərinə nəzər salaq. Yəni Ermənistanın baş naziri Nikol Paşinyanın yuxarıda qeyd edilən bəyanatından sonra görək o hansı sözləri sərsəmləyib? "Artsax" respublikasının ("dqr") sakinləri öz gələcəklərinə olan münasibətlərini əsla dəyişməyiblər", deyə sərsəmləyən Babayan bildirib ki, separatçılar heç vaxt Azərbaycanın tərkibində olmayacaqlar və s.

Babayanın isə ifadələrində yalnız bir həqiqət var və o, əslində hadisələri düzgün proqnozlaşdırıb - bəli, separatçılar heç vaxt Azərbaycanın tərkibində olmayacaqlar, onların yeri ya həbsxanalarımız, ya da məzarlıqlar olacaq. Çünki Azərbaycanın bundan sonra illərlə nəyi isə gözləməyə nə həvəsi, nə səbri, nə də marağı var, düşmən başını əzən dəmir yumruq isə artıq havadadır və öz eniş trayektoriyasını çoxdan müəyyən edib!

***Rövşən RƏSULOV***

***P.S. Yeri gəlmişkən, bugünlərdə Hadrutda Müzəffər Ali Baş Komandanımızın açılışında iştirak etdiyi yeni komando mərkəzinin fəaliyyətinin hansı istiqamətdə olduğunu da müəyyən etmək çətinlik yaratmır...***









## Yan Lisnevski:

# "Azərbaycan hamı üçün dövlət inkişafı nümunəsinə çevriləcək"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

**Moldovalı politoloq, "Intellect Group" sosioloji şirkətinin direktoru Yan Lisnevski "Caliber" analitik mərkəzinə müsahibəsində regionda yaranmış vəziyyət və sülh prosesinin gedişi haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.**




***- Cənubi Qafqazdakı vəziyyəti necə qiymətləndirirsiniz?***

- Biz başa düşməliyik ki, geosiyasi və strateji əhəmiyyəti baxımından Cənubi Qafqaz həmişə dünyanın güc mərkəzləri üçün maraqlı olub və olacaq. Rusiya ilə ABŞ arasında geosiyasi maraqların və münasibətlərin kəskinləşməsi təbii olaraq bir çox dövlətlərin, o cümlədən Cənubi Qafqaz ölkələrinin gələcəyinə təsir göstərəcək.

Sovet İttifaqının dağılmasından 30 il sonra bir çox keçmiş Sovet respublikalarının geosiyasi birliyi bulanıqlaşıb. Bu gün Moldova, Ukrayna, Özbəkistan, Gürcüstan, Azərbaycan, Ermənistan və hətta Belarus kimi ölkələri yalnız postsovet ölkələri hesab etmək onsuz da qeyri-mümkün və yanlışdır. Aİ və ABŞ-ın bu ölkələrə marağının artması ilə Rusiya təbii olaraq onlara təzyiq göstərməyə və oradakı təsirini itirməməyə çalışır. Bu dövlətlərin gələcəyi bir çox daxili və xarici amillərdən asılıdır.

Geosiyasətə gəlincə, istər RF-yə, istərsə də ABŞ-a və Aİ-yə münasibətdə xarici siyasətə diqqət və ehtiyatla yanaşsaq, vaxtilə SSRİ-nin tərkibində olmuş ölkələrdə, o cümlədən Cənubi Qafqaz respublikalarında vəziyyət normallaşacaq və sabit olacaq. Vətəndaşların daxili marağı isə geosiyasi oyunçuların marağında üstünlük təşkil edəcək.

Xarici siyasətdə belə bir vəziyyətə nail olmaq çox çətindir və bugünkü geosiyasi gərginlik şəraitində bu, praktiki olaraq mümkün deyil. Gürcüstan və Ermənistandan fərqli olaraq, Azərbaycanın üstünlüyü və böyük potensialı var, ondan istifadə regionda yüksək səviyyəli diplomatiyanın inkişafına gətirib çıxaracaq və bununla da hamı üçün dövlət inkişafı nümunəsinə çevriləcək.

***- Sizcə, ATƏT-in Minsk Qrupunun Qarabağ münaqişəsinin həlli ilə bağlı fəaliyyəti niyə iflasa uğradı?***

- Son zamanlar bütün beynəlxalq və xüsusilə Avropa təşkilatlarının fəaliyyətində pisləşmə müşahidə olunur. Bu təşkilatların yaradıldığı məqsədlər uzun müddətdir ki, qarşıya qoyulmayıb. Bu, əsasən, son vaxtlar dünyanı bürümüş böhranlarla bağlıdır: iqtisadi, enerji, pandemiya və s. Bunun fonunda əsas geosiyasi oyunçuların- Amerika, Rusiya, Çinin münasibətləri kəskinləşib. Üzvləri böyük oyunçuların təsiri altına düşmüş "yatmış" təşkilata çevrilən ATƏT də istisna deyil. Təhlükəsizlik arxitekturası dünyada və xüsusilə Avropada tamamilə yoxdur.

ATƏT özlüyündə dəyər fenomeni kimi çoxtərəfli dialoq böhranının əksi oldu. Bildiyiniz kimi, ATƏT həm rəhbərlikdə, həm də onun üzvləri arasında son vaxtlar müşahidə olunmayan konsensus prinsiplərinə əsaslanan bir təşkilatdır.

Birincisi, ATƏT-ə üzv olan bir çox dövlətin siyasəti əslində 1990-cı ildə Paris Xartiyasını imzalayanda hörmətlə yanaşdıqları demokratiya və insan haqları dəyərlərinə ziddir. ATƏT-in uğursuzluğunda ən çox bu dövlətlər maraqlıdır.

İkincisi, bu dəyərlərin iddia edilən "müdafiəçiləri"nin bir çoxu passivdir. Bu arada, böyük dövlətlərin siyasi şıltaqlığından deyil, Avropada qanunun aliliyinə əsaslanan canlı dialoqdan və təhlükəsizlik arxitekturasından daha çox asılı olan kiçik ölkələrdir.

Lakin bütün bunlara baxmayaraq, ATƏT-in hazırda beynəlxalq münasibətlərdə ən dəyərli "valyutası", yəni siyasi iradəsi və aktiv siyasi mövqeyi yoxdur.

***- Proqnozunuz: 2022-ci ildə Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalayacaqmı?***

- Bir il əvvəl Azərbaycan öz ərazi bütövlüyünü bərpa edə bildi. Bu qədər illik gərginlikdən sonra Qafqazda yenidən sülhün hökm sürməsi indi çox vacibdir. Tarixi ədalət bərpa olundu və artıq mübarizə aparacaq heç nə yoxdur. Gələcəkdə vəziyyəti normallaşdırmaq üçün lazımi körpüləri yaradan üçtərəfli bəyanat var və bu sənədin bəndlərinə əməl edilməlidir.



Bu bəyanatın hər hansı bir təxribatı və ya pozulması onu imzalayanların hamısına mənfi təsir göstərəcək. Rusiya və ABŞ kimi güclü dövlətlər ordudan istifadə edərək aqressiv siyasət yürüdə bilər, lakin Azərbaycan və Ermənistan kimi ölkələr uzun illər davam edən münaqişələrdən sonra da diplomatiya və dostluğa arxalanmalıdır.

Üçtərəfli bəyanatın bəndlərinin pozulması və ya təxribat müəyyən ərazinin alınmasına səbəb ola bilər, lakin itkilər fəlakətli olacaq. Birincisi, söhbət insan həyatından və mülki əhali arasında sosial müstəvidə münaqişənin yaranmasından gedir. Münaqişə bölgələrində aparılan tədqiqatların göstərdiyi kimi, mülki əhalini ilk növbədə iqtisadi və sosial ehtiyaclar, sərbəst hərəkət ehtiyacı və dövlət tərəfindən sabitlik zonasının yaradılması maraqlandırır.

İkincisi, üçtərəfli bəyanatın bəndlərinin pozulması təkcə özünü qeyri-sabit tərəfdaş kimi göstərən ölkənin imicinə deyil, həm də bütün gücü ilə sülhün qarantına çevrilmək istəyən Rusiyanın imicinə mənfi təsir göstərərdi. Odur ki, sülh müqaviləsini imzalamaq istəməyən və ya silahlı münaqişənin davam etdirilməsinə təhrik edən tərəf nəinki qonşu dövlətlər, hətta dünya ictimaiyyəti üçün də kənarda qalmağın nəticələri və riskləri barədə düşünməlidir. Silahlı münaqişənin ən böyük risk faktoru olduğu bir dövlətlə kim sərmayə qoymaq və ya ikitərəfli danışıqlar aparmaq istəyər? Böyük geosiyasi oyunçuların heç biri öz imicinə zərbə vurmaq riski ilə tərəfdaşını dəstəkləmək istəməz.

2020-ci il dekabrın 11-də baş verənlər Köhnə Tağlar və Çaylaqqala kəndlərinin Rusiya sülhməramlı kontingentinin məsuliyyət zonasından kənarda yerləşməsinə baxmayaraq, Rusiyanın imicinə mənfi təsir göstərib. Bu hadisə atəşkəs rejiminin dəfələrlə pozulmasının bütün iştirakçılara necə acınacaqlı təsir göstərə biləcəyini, həm Rusiyanın, həm də Ermənistanın imicinə xələl gətirə biləcəyini açıq şəkildə göstərdi.

***- Ermənistan sərhədlərin delimitasiyası və demarkasiyası prosesini, nəqliyyat marşrutlarının açılmasını niyə ləngidir? Azərbaycanla Ermənistan arasında gələcəkdə yenidən hərbi toqquşmalar yarana bilərmi?***

- Vəziyyət gərgin olaraq qalır. Bu, mənim fikrimcə, uzunmüddətli strategiyanın olmaması və Ermənistan vətəndaşlarına "məğlubiyyət hissi"nin aşılanması nəticəsində baş verir ki, bu da bəzi siyasətçilər tərəfindən öz məqsədləri üçün istifadə olunur və bu da respublikada siyasi böhrana gətirib çıxarıb. Güman etmək olar ki, İkinci Qarabağ müharibəsi bundan sonra da bəzi erməni siyasətçiləri tərəfindən öz seçki məqsədləri üçün istifadə olunacaq. Bu amil xarici siyasətdə qeyri-sabitliyə gətirib çıxarır ki, bu da uzun sürən siyasi böhran səbəbindən dəyişə bilər.

Eyni amil Ermənistan hakimiyyətinin qərarsızlığına da təsir edir ki, bu da üzərinə götürdüyü öhdəliklərin icrasının ləngiməsinə səbəb olur.

Fikrimcə, Ermənistan hakimiyyəti hansısa yolla öz opponentlərini əyləndirməyə çalışmaqla səhvə yol verir. Seçki kampaniyalarında həmişə Qarabağ mövzusundan istifadə edəcəklər olacaq, çünki siyasi texnologiyalara əsaslanan bu üsul maliyyə baxımından ən sərfəli və məqbuldur. Bir çox ölkələrin seçki kampaniyalarında daxili və ya xarici düşmən yaradılması ilk dəfə deyil. Seçiciləri kiminləsə mübarizəyə səfərbər etmək ideya, inkişaf vədi, xalqın rifahı ətrafından daha asandır.

Ermənistanda daxili siyasi münaqişə, kütləvi etirazlar və növbədənkənar seçkilər yalnız bir çox fərziyyələri təsdiqlədi:

-Təcavüzkar hərəkətlərə çağıran, Azərbaycanı xarici düşmən kimi göstərən müxalifət yalnız mövqeyini və vətəndaşların inam səviyyəsini itirir.

-Ermənistandakı mülki əhalinin əksəriyyəti (və əminəm ki, Azərbaycanda da) siyasi liderlərin səsküylü bəyanatlarına baxmayaraq, silahlı münaqişənin dayandırılmasını dəstəkləməyə hazırdır.

Təbii ki, sülhün möhkəmlənməsinə ümid etmək və çalışmaq lazımdır, lakin Ermənistanda siyasi sabitlik əldə olunmayana qədər münaqişənin yenidən alovlanması riskini də istisna etmək olmaz.

***Tərcümə - Elçin Bayramlı***

SƏS
28 dekabr
2021-ci il

# ət yeyənlərin damarları niyə tez tutulur?



**Bioloqlar qırmızı və qızartma ət çox yeyənlənlərin daha çox aterosklerozdan-damar tıxanmasından əziyyət çəkdiyini bildirir. Onlar yeni elmi tədqiqatda bunu niyə baş verdiyini araşdırıb. SİA xəbər verir ki, "Nature Microbiology" dərgisində dərc edilən elmi məqalədə ət qidalarından bağırsaqda Emergencia timonensis bakteriyasının çoxaldığı bildirilir.**

Bu bakteriyaların sintez etdiyi maddə, belə deyək bakteriya qalıqları damar divarlarında pıtraqlar yaradır. Bu səbəbdən xolesterin də yüksəlir, damarların içində kalsiy yığılır və getdikcə damarlar daralır. Klivlend klinikasının professorları ət qəbulu ilə ateroskleroz arasında əlaqəni sübut ediblər. Ət qidaları bağırsaq mikroflorasını dəyişir, orda zərərli bakteriyaları çoxaldır.

Belə ki, bu mikroflora ətdə olan faydalı maddələri udub, onları TMAO maddəsinə çevirir. Aterosklerozun əsas səbəbkarı isə məhz TMAO-dur. Emergencia timonensis bakteriyaları TMAO mokelulu üçün əsas mənbədir. Ət xoşlayanların bağırsağında bu bakteriya daha çoxdur, nəinki veqanlar.



# «SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Kaspi Mətbuat Yayım – 0125106196, 0502685868
9. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN


# Lenin mavzoleydən heç yerə "getməyəcək"...



SSRİ-nin qurucusu Vladimir Leninin nəşinin Qırmızı Meydandakı mavzoleydən çıxarılması məsələsi gündəmdə deyil, belə planlar yoxdur. SİA xəbər verir ki, bu barədə TASS-a Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov məlumat verib.

"Xeyr, belə planlar yoxdur", - Kreml sözçüsü yaxın gələcəkdə Leninin nəşinin məqbərədən çıxarılması barədə qərarın qəbul edilməsinin mümkün olub-olmaması sualına cavab verərkən deyib. "Bu məsələ gündəmdə deyil, indi başqa məsələlər və problemlərlə dolu olan başqa gündəm var", - Peskov vurğulayıb.

Qeyd edək ki, 2024-cü il Leninin ölümündən 100 il ötür. Lenin 1924-cü il yanvarın 21-də Moskva yaxınlığında, Qorkidəki iqamətgahında, 54 yaşında vəfat edib. Ölümündən əvvəl dəfn olunma üsulu və yeri ilə bağlı heç bir yazılı əmr qoymayıb. Yanvarın 22-də Leninin cənazəsi qısa müddətə balzamlaşdırılıb, Xalq Komissarları Sovetinin rəhbəri ilə vida müddəti uzadılıb, sonra Leninin nəşinin uzun müddət saxlanılması haqqında qərar qəbul edilib.



# Hansı Yeni il hədiyyələri uşaqlar üçün təhlükəlidir?

***Uşaqlar üçün hədiyyə olaraq yaramayan keyfiyyətsiz oyuncaqları ilk növbədə kəskin kimyəvi qoxusu ilə müəyyən etmək mümkündür. Bu barədə Moskva Səhiyyə Departamentinin baş mütəxəssisi Andrey Tyajelnikov məlumat verib. O, bildirib ki, körpələr üçün Yeni İl hədiyyəsi seçərkən kiçik detalları olmayan oyuncaqlara üstünlük vermək lazımdır.***

"Uşaqların maqnit konstruktorları ilə çox sayda xoşagəlməz hadisə yaşadıqlarını bilirik. Azyaşlılar oyuncaqların kiçik hissələrini udur, onlar yemək borusunda birləşərək həyat üçün böyük təhlükə yaradır. Bu baxımdan kiçik və iti hissələri olan istənilən konstruktor və ya digər oyuncaqlar təhlükəlidir. Körpələr hər şeyi ağızlarına aparırlar və oyuncaq seçərkən bu, mütləq nəzərə alınmalıdır", - deyə ekspert bildirib.

O, atıcı oyuncaqların azyaşlılara zədə yetirə biləcəyilə də bağlı xəbərdarlıq edib.

Bununla yanaşı, Tyajelnikov hədiyyə seçərkən onun hazırlandığı materiallara da xüsusi fikir verməli olduğumuzu xatırladıb. "Keyfiyyətsiz oyuncağı kəskin kimyəvi qoxu, parlaq zəhərli rəngləri ilə tanımaq olar. Amma təhlükəsizliyə zəmanət vermək üçün satıcıdan keyfiyyət sertifikatı tələb etmək lazımdır", - deyə o əlavə edib.//Oxu.az

# Bakıda yüksək bal toplayan tələbə dəm qazından boğulub öldü

***Bakıda dəm qazı daha bir can alıb. "Qafqazinfo" xəbər verir ki, Azərbaycan Universitetinin tələbəsi Elimxan Əliyev dəm qazından zəhərlənərək vəfat edib. 22 yaşlı gənc bu universitetdə MBA üzrə magistratura təhsili alırmış. E.Əliyev magistraturaya qəbul imtahanında 93 bal toplayaraq, respublika üzrə ən yüksək nəticə göstərənlərdən biri olub.***

O, 2016-cı ildə ali məktəblərə qəbul imtahanında da yüksək nəticə əldə edərək, 636 balla Azərbaycan Universitetinin tədrisi ingilis dilində aparılan maliyyə ixtisasına qəbul olub.



Həmçinin, 2017/2018-ci tədris ilinin yaz semestrini "Erasmus+" mübadilə proqramı çərçivəsində Almaniyanın tərəfdaş Koblenz Universitetində oxuyub.


**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4600